RƏSMİ DÖVLƏT QƏZETİ




# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 58 (8651) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# AĞDAMI DÜŞMƏNDƏN GERİ ALAN ONU HƏM DƏ TİKİB QURACAQDIR

**Həmişə doğma ana dilimlə, onun saflığı, şirinliyi, zəngin ifadə imkanları ilə fəxr etmişəm!**

*Amma...*

Azərbaycan dilində:

- erməni mənfurluğunu;
- erməni şərəfsizliyini;
- erməni murdarlığını;
- erməni alçaqlığını;
- erməni xəyanətkarlığını...

- əks etdirən, özündə dolğun ehtiva edən bir sözün olmaması məni həm təəssüfləndirir, həm də kədərləndirir...

**Bəlkə də Azərbaycan xalqı mövcud olduğu minilliklər ərzində özündə bütün alçaqlıqları, yaramaz xislətləri birləşdirən bir ünsürə rast gəlmədiyindən belə bir sözü yaratmayıb?!**

Bu fikir ağlabatan olduğundan bir qədər sakitləşirəm.

Müharibədən sonra Qarabağa gedən jurnalistlərin çəkib göstərdikləri fotolara və telesüjetlərə baxdıqdan sonra keçirdiyim hisslər məndə qəti qənaət yaradıb ki, belə əməlləri yalnız insan cildinə girmiş nəsə başqa bir varlığa bənzərlər törədə bilirlər!

Bir baxın:

- evləri yandır və dağıt;
- məscidləri və kilsələri xaraba günə qoy;
- Allahın evində inək, donuz saxla;
- ağacları, meşələri qır, yandır;
- tarixi abidələri məhv et;
- qəbiristanlıqları yerləyeksan elə...

**Gör insana və insanlığa, yerə və göyə, dirilərə və ölülərə, keçmişə və bu günə, bütün canlılara və cansızlara, ən nəhayət, Allaha və onun yaratdıqlarına nə qədər kin, nifrət bəsləməlisən ki, qabağına çıxan hər şeyi dağıdıb məhv edəsən, özündən sonra yalnız xarabalıqlar, bayquş ulayan yerlər-yurdlar qoyub gedəsən!**

*Bu millət özünün qənimidir!*

*Bu millət heç zaman gün görüb xoşbəxt ola bilməz!*

*Bu millətə Allah həmişə bəla göndərər!*

*Bu millət öz ağlı və xisləti ilə heç zaman vətənə, yurda, daimi yaşayış yerinə sahib ola bilməz!*

**İndi başa düşdüm ki, niyə erməninin öz vətəni, tarixi, keçmişi, mədəniyyəti, musiqisi, mətbəxi yoxdur!**

Niyə həmişə gözü onda-bundadır!

Niyə daim başqalarından oğurlayaraq özününküləşdirir!

Niyə soyqırımına uğramaq arzusundadır və bu adı almaq uğrunda daim mübarizə aparır!

*Bu onun illərboyu törətdiyi çirkin əməllərinin bəhrəsi, Allahın ona verdiyi əbədi cəzadır!*

*Ardı 4-5-ci səh.*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar



Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək.



# İlham Əliyev bir daha Ermənistana çıxış yolunu göstərdi

Prezident bəyan etdi ki, yeni kommunikasiyaların açılması müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər

"ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür".

Prezident İlham Əliyev martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşü zamanı səsləndirdiyi bu fikirlərlə bir daha bəyan etdi ki, artıq hər iki tərəfin "köhnə dəftərləri" bağlayaraq əməkdaşlıqda yeni səhifə açması zərurəti yaranıb. Ona görə də bütün diqqətlər gələcəyə yönəlib. Yəni İkinci Qarabağ müharibəsinin qalib ölkəsi kimi Azərbaycan Avropa qitəsinin bütün ölkələrini əhatə edən yeganə təşkilatla münasibətlərinin yeni formatını müəyyənləşdirib.

## 29 illik fəal əməkdaşlıq artıq yeni formata keçir

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri də beynəlxalq təşkilatlara üzv olmaq və əlaqələri genişləndirməkdir. Bu siyasətin əsas istiqaməti dövlətçiliyi və müstəqilliyi möhkəmləndirməyə, inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilib.

Hazırda Azərbaycan müstəqil dövlət kimi nüfuzlu beynəlxalq təşkilatlarla - BMT, ATƏT, NATO, GUAM, Qoşulmama Hərəkatı, Avropa Şurası, İKT, MDB və çoxlu sayda digər qurumlarla fəal əməkdaşlıq edir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan öz milli maraqlarını gerçəkləşdirib, müstəqilliyini daha da möhkəmləndirib, ölkəmiz haqqında əsl reallıqları dünya birliyinə çatdırıb.

*Ardı 7-ci səh.*




# Vaksinasiyadan sonra insanlar deyil, virus təcrid ediləcək

Avstriyalı mütəxəssislər smartfonlar üçün koronavirusu müəyyən edə bilmək qabiliyyətinə malik yeni proqram hazırlayıblar. Yeni kompüter proqramı COVID-19-dan əlavə, digər xəstəlikləri də aşkar edə biləcəkdir. Proqramın yaradıcıları qeyd edirlər ki, pandemiya dövründə "qaynar xətt"ə edilən müraciətlərin çoxluğu bu zərurəti meydana gətirib. "Simptom" adlı səs assistenti xəstənin səs yazısını 36 dildə qavrayır və 20 mindən çox xəstəliyin diaqnozunu göstərir. Bu sistemlə koronavirusun aşkar edilməsi dəqiqliyi 96 faizdən çoxdur.

Bütün yeni üsullara, texnoloji inkişafa baxmayaraq, yeni tip koronavirus dünyanın demək olar ki, bütün ölkələrində yayılmaqda davam etməklə yanaşı, mutasiyaya da uğrayır. Hələ ötən ilin sonlarında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus 2021-ci ildə dünya ictimaiyyətinin "yeni çağırışlar", o cümlədən koronavirusun yeni ştammları ilə qarşılaşacağı barədə xəbərdarlıq etmişdi: "Hesab edirik ki, dünya ictimaiyyəti 2021-ci ildə Böyük Britaniya və Cənubi Afrika Respublikasında aşkar olunanlar da daxil olmaqla, koronavirusun yeni ştammlarının araşdırılmasına diqqət yetirməlidir".

*Ardı 7-ci səh.*

# Təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika təlim bölgəsinə yola düşüb

Əməliyyat-taktiki təlimlərin rəhbərliyi, eləcə də Azərbaycan Ordusunun təlimlərə cəlb edilən şəxsi heyəti və xüsusi texnikası təlim bölgəsinə yola düşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yerdən və havadan müşayiət ediləcək kolonların hərəkət marşrutlarında komendant xidməti təşkil olunub.

Təlimlər martın 18-dək davam edəcək.





# İlham ƏLİYEV: “Biz öz vəzifəmizi tamamlamışıq”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevlə ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin təkbətək görüşü oldu.





Sonra görüş geniş tərkibdə davam etdirildi.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, xanım nazir. Sizi görməyə çox şadam. Bizim təkbətək danışmaq imkanımız oldu, indi isə nümayəndə heyətlərinin iştirakı ilə görüşürük. Sizin səfərinizə böyük əhəmiyyət veririk. ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür.

Bizə gəlincə, biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də, işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik. Bilirəm ki, bu günlərdə çox məşğulsunuz, çox ölkəyə səfər edirsiniz. Mən sizi Azərbaycanda görməyə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox məhsuldar olacaq. Bir daha xoş gəlmisiniz.

ATƏT-in fəaliyyətdə olan sədri **Ann LİNDE** dedi:

- Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakıya belə uzun müddətdən sonra qayıtmaq sevindirici haldır. Təəssüf edirəm ki, payızda gələ bilməmişəm. Çünki hökumətimiz həmin vaxt uçuşların həyata keçirilməsinin təhlükəli olduğunu hesab etmişdir və bu səbəbdən mən gələ bilməmişdim. Lakin indi mən buradayam. Bildiyiniz kimi, ATƏT-in sədri olaraq bizim əsas prioritetimiz Avropada təhlükəsizlik sistemini müdafiə etməkdir və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli təhlükəsizlik konsepsiyasına dəstək olmaqdır. Əlbəttə ki, biz ATƏT ərazisində münaqişənin həllinə töhfə vermək üçün nə edə biləcəklərimizi nəzərdən keçirəcəyik. Odur ki, bu kontekstdə, əlbəttə, beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Hesab edirəm ki, bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

# Azərbaycanın və İsveçin xarici işlər nazirlərinin görüşü keçirilib



Martın 15-də xarici işlər naziri Ceyhun Bayramovun ölkəmizdə işgüzar səfərdə olan İsveç xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə hər iki tərəfdən geniş tərkibli nümayəndə heyətləri iştirak edib.

Nazir Ceyhun Bayramov qarşı tərəfi salamlayıb, ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyini və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğunu qeyd edib. O, dövlətlərimiz arasında siyasi dialoqun davamlılığının təmin olunması, yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi, habelə beynəlxalq platformalarda əməkdaşlığın genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Nazir bölgədə olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına zidd davranış, o cümlədən Azərbaycan ərazilərinə terrorçu qrupun göndərilməsi, bu ölkənin hərbçilərini mülki geyimdə Azərbaycan ərazilərinə göndərmək cəhdləri, Azərbaycanın onilliklər ərzində işğal altında saxlanılan ərazilərində geniş minalanmanı həyata keçirən Ermənistanın hazırda mina xəritələrini Azərbaycana verməkdən imtina etməsi və digər məsələlər barədə həmkarına məlumat verib.

Nazir Ann Linde Azərbaycan Respublikasının dövlət başçısı ilə çox yaxşı görüşün keçirildiyini və ətraflı müzakirələrin aparıldığını qeyd edib. O, bölgədə mövcud olan cari vəziyyətdə ATƏT-in töhfə verə biləcəyi məsələlərin müəyyən edilməsinin əhəmiyyətini bildirib.

Nazirlər Azərbaycanın ATƏT ilə əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi apardılar. ATƏT-in hər üç ölçüsü üzrə Azərbaycanın təşkilatla əməkdaşlığı, həyata keçirilən layihələr, gələcək planları müzakirə ediblər.

Görüşdə tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Daha sonra Azərbaycanın və İsveçin xarici işlər nazirlərinin iştirakı ilə mətbuat konfransı keçirilib.

* * *

Azərbaycan-İsveç münasibətləri bir sıra sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər gündəmdədir. Qarşılıqlı investisiya qoyuluşuna xüsusi diqqət ayrılmalıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 15-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, Azərbaycan son dövrlərdə alternativ və bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi əhəmiyyət verir. Bu baxımdan İsveç bizim üçün maraqlı ölkədir.

Nazir Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan ATƏT-lə əməkdaşlığı vacib hesab edir. Ermənistanın növbəti təxribatına cavab olaraq ölkəmizin həyata keçirdiyi uğurlu əməliyyatla torpaqlarımız işğaldan azad edildi. Bu isə bölgədə yeni əməkdaşlıqlar üçün imkanlar yaradır. Azərbaycan dövlətlərarası münasibətlərin inkişafında hər zaman maraqlıdır.

* * *

İsveç Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Qarşılıqlı əlaqələrin inkişafı bir çox sahələrdə uğura rəvac verir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə martın 15-də baş tutan görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Ann Linde Azərbaycan ilə İsveç arasında siyasi, iqtisadi-ticarət və mədəniyyət sahələrində əməkdaşlıq üçün imkanların olduğunu söyləyib.

O, qeyd edib ki, 44 günlük müharibədən sonra bölgədə yaranan reallıqlar yeni əməkdaşlıq əlaqələrinin formalaşmasına imkan verir.

* * *

Azərbaycan üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, bütün hərbi əsirləri Ermənistana təhvil verib. Hətta hərbi əməliyyatlar zamanı da Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə əsirlərin qarşı tərəfə verilməsi üçün müvafiq addımlar atılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə xarici işlər naziri Ceyhun Bayramov martın 15-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşünün yekunlarına dair keçirilən mətbuat konfransında bildirib.

“Azərbaycan dövlətinin bu məsələdə mövqeyi çox açıq və aydındır. Biz üçtərəfli Bəyanata uyğun olaraq, hərbi əməliyyatlar zamanı və ondan əvvəl tutulmuş bütün hərbi əsirləri Ermənistan tərəfinə qaytarmışıq”, - deyə nazir qeyd edib.

Ceyhun Bayramov əlavə edib ki, noyabrın 26-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Ermənistanın Şirak rayonundan göndərilən silahlı şəxslər hərbi əsir deyillər. Hüquq mühafizə orqanları bununla bağlı araşdırmaları davam etdirir. Hətta bu günlərdə də Ermənistan tərəfi tikinti materiallarının daşınması üçün nəzərdə tutulmuş maşınlarla hərbçilərini işğaldan azad edilmiş ərazilərə göndərməyə cəhdlər göstərir. Bu barədə Azərbaycan BMT Baş Assambleyasını məlumatlandırıb.

# Milli Məclisin komitə iclaslarında

Martın 15-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikası Hesablama Palatasının auditorlarının təyin edilməsi haqqında” məsələyə baxılıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda komitənin sədri Tahir Mirkişili bildirib ki, Milli Məclisin sədri Sahibə Qafarovanın təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə, “Hesablama Palatası haqqında” Qanunun 11.3-cü maddəsinə və “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Qanunun 12-ci maddəsinin ikinci hissəsinə əsasən, Nəsir Sadıqovun Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini vəzifəsinə, Cavid Bayramovun, Hilal Hüseynovun və Vəfa Mütəllimovanın isə Hesablama Palatasının auditorları vəzifələrinə namizədlikləri irəli sürülüb.

Qeyd olunub ki, hazırda bu qurumun auditoru vəzifəsinə olan vakant yerlərə təqdim edilmiş namizədlər “Hesablama Palatası haqqında” Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş palatanın üzvlərinə dair tələblərə cavab verirlər, peşəkarlıq səviyyələri yüksəkdir. Tahir Mirkişili vurğulayıb ki, ali audit orqanı olan Hesablama Palatasının dövlət büdcəsinin icrası ilə bağlı həyata keçirdiyi fəaliyyət Milli Məclisin deputatlarına təqdim olunan təhlil materiallarının əhatəli olmasında və yüksək keyfiyyətdə hazırlanmasında özünü aydın göstərir. Bu prosesin ildən-ilə təkmilləşməsində adıçəkilən namizədlərin özünəməxsus əməyi vardır.

Sonra komitədə yeni vəzifələrə təqdim olunmuş namizədlərin çıxışları dinlənilib. Namizədlər göstərilən etimadı doğrultmaq üçün bütün imkanlarını səfərbər edəcəklərini bildiriblər.

İclasda çıxış edən komitə sədrinin müavini Əli Məsimli, deputatlar Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Bayramov və Mahir Abbaszadə Hesablama Palatasının sədr müavini və auditorları vəzifələrinə irəli sürülmüş namizədlərə müsbət münasibət bildiriblər, onlara təmsil etdikləri qurumun işlərini yeni dövrün çağırışlarına uyğun qurmaqda uğurlar arzulayıblar, təklif və tövsiyələrini diqqətə çatdırıblar.

Fikir mübadiləsinin yekununda komitənin rəyini bildirən Tahir Mirkişili qeyd edib ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi namizədliyi irəli sürülmüş bu şəxslərin həmin vəzifələrə təyin olunmasını məqsədəuyğun hesab edir.

Sonda məsələ Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Martın 15-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda əvvəlcə komitə sədri Bəxtiyar Əliyev “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatı barədə” danışıb.

Komitə sədri Nazirlər Kabinetinin 2020-ci ildəki fəaliyyətini müsbət qiymətləndirib. Bildirib ki, ötən il dünya ölkələrinin iqtisadiyyatlarına böyük ziyan vuran pandemiyanın mənfi təsirlərinə Azərbaycan nəinki uğurla müqavimət göstərib, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkə iqtisadiyyatında 2020-ci ildə nailiyyətlər əldə olunub. O, Azərbaycanın “Doing Business 2020” hesabatında mövqeyinin 6 pillə yüksəlməsini və ölkəmizin dünyanın “Ən islahatçı 10 ölkəsi” sırasında qərar tutmasını xüsusi vurğulayaraq, Vətən müharibəsində Qələbədən sonra Azərbaycanın biznes və sərmayə qoyuluşları üçün daha da cəlbedici ölkəyə çevrildiyini deyib.

Çıxış edən komitə üzvləri ölkəmizin 2020-ci ildəki nailiyyətlərini böhranı uğura necə çevirməyin nümunəsi kimi dəyərləndiriblər və hökumətin hesabatı ilə bağlı müsbət fikir bildiriblər.

Sonra Bəxtiyar Əliyev “Vətənpərvərlik tərbiyəsi ilə bağlı qanun layihəsinin hazırlanması” ilə əlaqədar məlumat verərək bildirib ki, Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələr parlamentin qarşısında böyük vəzifələr qoyub və onlardan biri də gənclərin milli ruhda, vətənpərvərlik ruhunda yetişdirilməsi ilə bağlı idi. Komitə sədri diqqətə çatdırıb ki, qarşıya qoyulan vəzifələrə uyğun olaraq ötən dövr ərzində Milli Məclisdə intensiv iş aparılıb. Qeyd olunub ki, xüsusən Vətən müharibəsi zamanı vətənpərvər gənclərimizin döyüş şücaəti sayəsində əldə olunan şanlı Zəfər fonunda komitənin müzakirəsinə çıxarılan “Vətənpərvərlik tərbiyəsi ilə bağlı qanun layihəsinin hazırlanması” məsələsi xüsusi aktuallıq kəsb edir.

Məsələ ilə bağlı çıxış edən komitə üzvləri Musa Qasımlı, İsa Həbibbəyli, Aqiyə Naxçıvanlı, Eldar Quliyev, Kamilə Əliyeva, Ceyhun Məmmədov, Etibar Əliyev, Anar İsgəndərov, Fatma Yıldırım, Şahin Seyidzadə gənc nəslin milli ruhda böyüməsinin və onlara vətənpərvərliyin aşılanmasının qanunvericilikdə təsbit olunması ilə bağlı fikirlərini səsləndiriblər. Deputatlar müasir dövrdə gənclərin xarici təsirlərdən qorunmasının, tarixi, milli dəyərlərə və dövlətçiliyə sadiqlik ruhunda yetişdirilməsinin vacibliyini qeyd edərək bu məsələnin əhəmiyyətindən danışıblar.

İclasda komitə üzvləri Rafael Hüseynov, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Afət Həsənova, Pərvin Kərimzadə, Müşfiq Məmmədli və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası olub

Baş Prokurorluqla ölkəmizin aparıcı elm və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün tədbirlər davam etdirilir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə həyata keçirilən tədbirlərə eyni zamanda ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarının müəyyən edilməsinə töhfə verən Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan kimi Elmi-Məsləhət Şurasının fəaliyyətinin mühüm əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Martın 15-də Baş Prokurorluqda Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

Şuranın iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik, ADA, Milli Aviasiya akademiyaları, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidməti, Gömrük akademiyaları, eləcə də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin nümayəndələri iştirak ediblər.

Elmi-Məsləhət Şurasının iclasını açan baş prokuror Kamran Əliyev Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız şanlı Qələbə, işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən geniş quruculuq-bərpa işləri və layihələr, şəhid ailələri və qazilərimizə göstərilən dövlət qayğısı, postmüharibə dövrünün ölkəmiz və ümumilikdə bütün region üçün verdiyi fayda, Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilən sülh və insanlıq əleyhinə cinayətlərin ifşa olunması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində görülən tədbirlər, eləcə də prokurorluq orqanlarının keçən dövr ərzində fəaliyyəti barədə Şura üzvlərini məlumatlandırıb.

Daha sonra Şura üzvü - Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Şuranın keçən dövr ərzində fəaliyyəti barədə hesabat verib.

Bildirilib ki, Şuraya daxil olan qurumlar, eləcə də tərəfdaş ölkələrin tədris qurumları, akademiyaları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində ciddi işlər görülüb. Belə ki, Baş Prokurorluqla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında memorandumlar imzalanmaqla birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması nəzərdə tutulub.

Beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədar Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası və Qazaxıstanın nüfuzlu hüquq mühafizə akademiyaları ilə işgüzar münasibətlər qurulub.

Ötən müddət ərzində hüquq ədəbiyyatı, metodiki vəsaitlərin və dövri mətbu nəşrlərin hazırlanması ilə bağlı müasir çağırışlara cavab verən təşəbbüslər davam etdirilib. Həmin tədbirlər çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və müzəffər Azərbaycan Ordusunun rəşadətinin təzahürü olan şanlı Vətən müharibəsinə və parlaq qələbəmizə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xalqımıza göstərdiyi xeyirxah və nəcib qayğıya, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı görülən tədbirlərə həsr olunan “Qarabağ Azərbaycandır” kitabı hazırlanaraq ictimaiyyətə təqdim edilib.

Bundan əlavə, “İstintaq təcrübəsi” və “Dövlət ittihamının müdafiəsi təcrübəsi” adlı yeni dövri elmi-praktiki mətbu nəşrlər də təsis edilərək hüquq ictimaiyyətinə təqdim olunub. Azərbaycan Prokurorluğu Elmi-Praktiki Jurnalının və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin bülleteninin növbəti rüblük nömrələri oxuculara təqdim edilib.

İclas çərçivəsində Ermənistan tərəfindən mülki əhalimizə qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər və bununla bağlı təzminat məsələləri, işğal altında olan müddətdə torpaqlarımızda urbisid aktlarının törədilməsi, hərbi münaqişələr zamanı mülki əhalinin qorunması və insan hüquqlarının müdafiəsi mövzusunda məruzə ilə çıxışlar edilib, eyni zamanda “Özəl sektorda antikorrupsiya standartları” və “Normayaratma fəaliyyəti” adlı vəsaitlərin təqdimatı keçirilib.

Daha sonra gündəlikdə duran məsələlər, o cümlədən vahid istintaq və məhkəmə təcrübəsinin formalaşması ilə bağlı müxtəlif hüquqi məsələləri özündə əks etdirən mövzular üzrə Elmi-Məsləhət Şurasının üzvləri, eləcə də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Hüquqi xidmətlərin göstərilməsi məsələləri sektorunun müdiri Vüsal İsayev, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının hakimi Tahir Kazımov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, hüquq üzrə fəlsəfə doktoru Nizami Səfərov, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin Hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru Ayxan Rüstəmzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor Əmir Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən, prorektor, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının İxtisas fənləri kafedrasının baş müəllimi Şahin Hüseynov və digər iştirakçılar tərəfindən çıxışlar edilib, geniş müzakirələr aparılıb, həmçinin Elmi-Məsləhət Şurasının qarşısında duran vəzifələr müəyyən edilib.



# Postmüharibə dövrü: çevik sosial dəstək tədbirləri geniş miqyas alır

**Tarixi Qələbə ilə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə icra olunan sosial dəstək proqramları barədə suallarımızı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev cavablandırır.**

*- Cənab nazir, postmüharibə dövründə ölkəmizdə geniş vüsət alan sosial dəstək paketi hansı əhali kateqoriyalarını və dəstək istiqamətlərini əhatə edir? Artıq nə qədər vətəndaşımız bu tədbirlərdən faydalanıb?*

- Hər il ölkəmiz üçün yeni irəliləyişlərlə, dövlətimizi daha da gücləndirən böyük nailiyyətlərlə yadda qalır. 2020-ci il isə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində möhtəşəm Zəfər əldə etdiyi və 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızın azad edildiyi bir il kimi, şanlı qəhrəmanlıq salnaməsi kimi tarixə qızıl hərflərlə həkk olundu. 44 günlük qısa bir dövr ərzində Azərbaycan müasir dünya hərb tarixinə misilsiz döyüş peşəkarlığı nümunəsi kimi yazılan uğurlu hərbi əməliyyatlarla beynəlxalq səviyyədə tanınan ərazilərini azad etdi, xalqımızın 30 illik həsrətinə son qoyuldu.

Yeni Azərbaycan Partiyasının VII qurultayındakı çıxışında *“Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq”* deyən cənab Prezidentin vurğuladığı kimi, *“Bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır”*.

Bu müharibədəki Qələbə ilə Azərbaycan qüdrətli orduya malik güclü dövlət olduğunu əyani şəkildə nümayiş etdirdi. Tarixdə müharibələr zamanı adətən arxa cəbhədə insanların rifahının sanki arxa plana keçdiyini görmüşük. Lakin 44 günlük müharibə zamanı Prezident İlham Əliyevin göstərişi ilə bütün sosial müdafiə mexanizmlərinin arxa cəbhə missiyasına uyğun daha çevik, operativ fəaliyyət rejimi, dayanıqlı sosial təminat prosesləri, məşğulluq məsələləri təmin olundu. Müharibədən, erməni terrorundan zərər çəkənlərə psixoloji dəstək və s. işlərə başlandı, ön cəbhədə müharibə getdiyi vaxtda da arxa




cəbhədə şəhid ailələri və müharibə əlilləri üçün mənzillə, avtomobillə təminat proqramları uğurla davam etdirildi.

Azərbaycan postmüharibə dövrünə də çevik və genişmiqyaslı sosial dəstək paketi ilə daxil oldu. Bu dəstək paketi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərini, müharibə iştirakçılarını, müharibədə yaralanmış hərbçiləri, müharibə əlillərini, erməni terrorundan zərər çəkənləri, eyni zamanda qeyd olunan şəxslərin yaxınlarını əhatə edir. Dəstək istiqamətləri isə genişdir, buraya sosial təminat hüquqlarının çevik reallaşdırılması və sosial ödənişlərin proaktiv təyinatı, sosial-psixoloji dəstək, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, maddi yardım, məşğulluq məsələlərinin operativ həllində, kiçik biznes imkanlarının yaradılmasında dəstəyin göstərilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması və s. kimi dəstək işləri daxildir. Ümumilikdə postmüharibə üzrə bu dəstək paketi artıq 20 mindən çox insanı əhatə edib.

Şəhid ailələrinə, müharibə əlillərinə dəstək tədbirlərindən bəhs edərkən, ilk növbədə, cənab Prezidentin xüsusi diqqət və qayğıkeşliyi ilə onların mənzil və fərdi evlə təminatının geniş vüsət aldığını vurğulamaq istərdim. Bunu son illərin timsalında da aydın görmək olar: 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlara 626, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934, 2020-ci ildə isə 1572 mənzil və fərdi ev verilib.

Postmüharibə dövründə isə Prezident İlham Əliyevin tapşırığı ilə bu proqramın dəfələrlə genişlənməsi üçün işlərə başlanıb. Keçmiş köçkünlər üçün inşa olunmuş mənzillər də indi şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir.

Cari il fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması tədbirində *(Şəkil 1-2. Ramana tədbiri)* dövlət başçısı bu il də 3 minə yaxın mənzil veriləcəyini, həmçinin ötən dövrdə müharibə əlillərinə 7200-ə yaxın minik avtomobilinin verildiyini bildirdi. Prezident şəhid ailələrinin, müharibə əlillərinin daim dövlət qayğıkeşliyi ilə əhatə olunduqlarını vurğulayaraq: *“Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar”* deyə bəyan etdi.




Göründüyü kimi, şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2021-ci ildə 5 dəfəyə yaxın genişlənəcək.

Ümumilikdə Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə nazirliyimiz yaxın 5 ildə - 2014-2019-cu illərdə uçota alınmış şəxslərə və 2020-ci ildə hərbi əməliyyatlar, o cümlədən Vətən müharibəsi zamanı şəhid olanların ailələri və əlillərinə mərhələli şəkildə 11 min mənzil və fərdi ev təqdim edəcək.

Beləliklə, şəhid ailələrinə, müharibə əlillərinə əgər 1997-2020-ci illərdə 9200 mənzil və fərdi ev verilibsə, cənab Prezidentin xüsusi qayğıkeşliyi nəticəsində yaxın 5 ildə onlara daha 11 min mənzil və fərdi ev veriləcək. Bununla mənzil və fərdi evlə təmin olunanların sayı 2025-ci ilin sonuna 20 mini ötəcək. Artıq 2021-ci ilin planı üzrə 100 mənzil şəhid ailələri və müharibə əlillərinə verilib və il ərzində bu tədbirlər ardıcıllıqla davam edəcək.

*- Sosial dəstək paketi üzrə daha hansı işlər aparılır? Qeyd olunan hədəf qrupları hansı sosial təminat növləri ilə əhatə edilirlər? Bu sahədə işlər necə təşkil olunub?*

- Nazirliyin həm rəhbər vəzifəli şəxsləri, həm də digər əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət edilir, onlara hüquqlarına dair məlumat verilir. Şəhidlərimizin ailə üzvlərinə sosial təminat növləri üzrə ödənişlərin (Prezidentin aylıq təqaüdü, pensiya və müavinət) təyin olunması işlərinin operativ təşkili üçün postmüharibə dövrünün elə ilk günlərindən xüsusi işçi qrup yaradılıb və bütün əməkdaşlar bu işlərə səfərbər edilib. Şəhid ailələri üzvlərinin müraciətinə, onların zəruri sənədləri təqdim etmələrinə ehtiyac olmadan bu sənədlər aidiyyəti qurumlardan alınaraq toplanılmaqla və elektron sistem üzərindən proaktiv qaydada sosial ödənişlər təyin olunub. Artıq 2850 şəhidin 7230 ailə üzvünə 12846 istiqamət (Prezidentin aylıq təqaüdü, pensiya və müavinət) üzrə sosial ödəniş təyinatı aparılıb və artıq bu proses yekunlaşmaq üzrədir. 83 mülki şəhidin 206 ailə üzvünə də 400 sosial ödəniş təyin edilib.

Eləcə də müharibədə yaralanmış qazilərimizin əksəriyyəti ilə görüş keçiriləcək, onların həm sağlamlıq, həm də sosial vəziyyətlərinin ilkin monitorinqi aparılıb. Qazilərimizin əlilliklərinin operativ, vaxtında, keyfiyyətlə və mərkəzləşmiş şəkildə təyin edilməsi məqsədilə Nazirlər Kabinetinin Qərarı ilə yaradılmış komissiya hərbi qulluqçuları birgə əyani müayinədən keçirir. Onların sənədləri sürətlə rəsmiləşdirir, e-sistemə daxil edir, ümumilikdə, əyani müayinə əsasında əlilliklərini qiymətləndirir. Artıq 200-ə yaxın qazimizə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb. Bu təyinatla əlaqədar onlara birdəfəlik sığorta ödənişi edilir, Prezidentin aylıq təqaüdləri, əlilliyə görə aylıq pensiya və ya müavinətlər də proaktiv qaydada, yəni elektron sistem üzərindən təyin olunur.

Təyin olunmuş sosial ödənişlər barədə şəhid ailələrinə, qazilərimizə məlumatlar




verilir. Bir çox hallarda isə təqaüd kartları onlarla görüşlər zamanı elə evlərində təqdim olunur.

Dövlət başçısının bu kateqoriyalardan olan insanlara növbəti qayğıkeşliyi və postmüharibə dövründə daha bir mühüm dəstək tədbiri kimi cənab Prezidentin 2020-ci il dekabrın 30-da imzaladığı fərmanlarla Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 300 manatdan 500, müharibə, 1990-cı ilin 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər üçün I dərəcə üzrə 250 manatdan 400, II dərəcə üzrə 230 manatdan 350, III dərəcə üzrə 210 manatdan 300, Milli Qəhrəmanlarımız üçün 1500 manatdan 1800, Böyük Vətən müharibəsi iştirakçıları üçün 150 manatdan 300 manata çatdırılıb. Eyni zamanda “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslərə 2000 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis olunub.

Postmüharibə dövrü üzrə digər bir dəstək istiqaməti hədəf qruplarına sosial-psixoloji dəstəyin göstərilməsidir. Bu çərçivədə artıq 9 min nəfərlə psixokorreksiya işləri aparılıb, həmçinin operativ dəstək üçün yaradılan “Onlayn psixoloji xidmət” sistemində 5 psixoloq tərəfindən zənglər cavablandırılıb. Zənglər əsasında 70 şəxs psixiatra yönləndirilib, 43 şəxsin evində əyani psixoloji dəstək göstərilib və digər lazım olan tədbirlər görülüb.

Bundan əlavə, şəhid ailələrinə, qazilərə, erməni terrorundan zərər çəkən şəxslərə aktiv məşğulluq proqramları çərçivəsində dəstək verilir. Müharibədən sonrakı dövrdə həmin kateqoriyalardan olan 3700-ə yaxın şəxs aktiv məşğulluq proqramları ilə əhatə olunub. Onlardan 3030-u (o cümlədən, 1200 şəhid ailəsi üzvü) özünüməşğulluq proqramına cəlb edilərək onlar üçün seçdikləri iqtisadi fəaliyyət növləri üzrə kiçik təsərrüfat və müəssisələr qurulub. Qeyd olunan kateqoriyalara aid 645 nəfərin haqqı ödənilən ictimai işlər, əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramlarından da istifadə edilməklə məşğulluq məsələlərinin operativ həlli təmin olunub.

Başqa bir vacib məqam: normativ-hüquqi bazanın postmüharibə dövrünə uyğun olaraq təkmilləşdirilməsi işlərindən biri kimi, müvafiq qaydalarda dəyişiklik edilməklə şəhid statusu Gəncə və Naftalan şəhərlərində, Bərdə rayonunda erməni təxribatı nəticəsində həlak olmuş mülki şəxslərə də aid edilib.

*- Bilirik ki, müharibədə yaralanmış qazilərimizin keyfiyyətli reabilitasiya xidmətləri və reabilitasiya vasitələri ilə təminatı sahəsində də geniş dəstək işləri aparılır. Onu da qeyd edək ki, onlar üçün həm yeni reabilitasiya ocaqlarının açılması, digər tərəfdən qazilərin yüksək texnologiyalı protezlərlə təminatına başlanması cəmiyyət tərəfindən rəğbətlə qarşılanır.*

- Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixi Qələbəmizin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Ali Baş Komandanın Vətən müharibəsinin elə ilk günlərində və müharibə zəfərlə başa çatandan sonra, ilk növbədə, yaralı hərbçilərimizlə görüşməsi onlara yüksək hörmət və diqqətin nümunəsi oldu. YAP-ın VII qurultayında cənab Prezident bir daha bəyan etdi: *“Qazilərimiz dövlət tərəfindən bütün lazımi müalicə vasitələri ilə*




*təmin edilir, ən müasir protezlər sifariş olunubdur. Müharibə zamanı sağlamlığını itirən qazilərimizi biz tezliklə normal həyata qaytaracağıq”*.

Qeyd edim ki, dövlət başçısının gostərişi ilə son illər müasir tələblərə uyğun qurulmuş reabilitasiya sistemi Vətən müharibəsində yaralanmış hərbçilərimizin yüksək səviyyədə reabilitasiya xidmətləri ilə təminatı baxımından mühüm bazadır. 2019-2020-ci illərdə nazirliyin 11 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulmuş, ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib. Artıq açılışını etdiyimiz Şağan Reabilitasiya Pansionatı ilə yanaşı, bu il daha 3 reabilitasiya və sosial xidmət müəssisəsi - Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ Uşaq Reabilitasiya Mərkəzi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi istifadəyə veriləcək.

Prezidentin iştirakı ilə 2021-ci il fevralın 25-də açılan Şağan Reabilitasiya Pansionatında müasir tələblərə uyğun bərpa müalicəsi şəraiti yaradılıb. 128 palatadan ibarət olan 250 çarpayılıq reabilitasiya müəssisəsi ildə 5 minə yaxın əlilliyi olan şəxsə qabaqcıl metodika və texnologiyalardan istifadə olunmaqla reabilitasiya xidmətləri göstərməyə imkan verir. Yeni açılan 200 çarpayılıq Mərdəkan Reabilitasiya Pansionatının isə ildə 4500 şəxsə xidmət etmək imkanı var.

Bizim əsas hədəfimiz həm bu il reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 3 il əvvələ nisbətən 3 dəfə artıraraq 30 minə çatdırılması, eyni zamanda reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsidir. Hər iki istiqamətdə məqsədyönlü işlər aparılır.

Yeni açılan mərkəzlərdə artıq qazilərimiz həm sosial-psixoloji, həm də fizioterapevtik müalicə yönümlü reabilitasiya xidmətləri ilə əhatə olunurlar. Dəstək işləri çərçivəsində Reabilitasiya Müəssisələrində 500 qaziyə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. Artıq bir çox qazimiz bu mərkəzlərə qəbul olunub, onlar ixtisaslamış həkim-reabilitoloqlar tərəfindən reabilitasiya prosedurlarına cəlb ediliblər.

Qeyd edim ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək humanizmin təcəssümü olan təşəbbüs və layihələri müharibə əlillərini də əhatə edir. Məlum Aprel döyüşlərində yaralanmış hərbçilərimizin reabilitasiyası üçün Heydər Əliyev Fondunun “2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsi icra olunub. Bu layihə çərçivəsində həmin əsgər və zabitlərimiz Almaniya, İslandiya, İngiltərənin dünyada məşhur protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.

Söz düşmüşkən onu da bildirim ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə müharibə əlillərinin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin edilməsi məqsədilə son illər nazirliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində də dünyanın məşhur protez istehsalçılarından olan “OTTO BOKK” şirkəti (Almaniya) ilə əməkdaşlıq şəraitində yüksək texnologiyalı protezlərin hazırlanması sexi qurulub.

(Ardı var)

**Bəxtiyar ƏZİZLİ,**
**“Azərbaycan”**






# AĞDAMI DÜŞMƏNDƏN GERİ ALAN

*Əvvəli 1-ci səh.*

## Mənim gözəl Vətənim

**Vətənin hər güşəsi gözəldir!**

**Ölkə paytaxtı Bakı isə bir ayrı aləmdir!**

Əyalətlərdə yaşayan hər kəsin ən böyük uşaqlıq arzularından biri Bakını görmək olur!

Nə vaxtsa hər bir azərbaycanlı bu arzusuna qovuşur...

Hətta bu nəhəng şəhərin daimi sakininə də çevrilə bilir...

Bakı təkcə gözəl deyil!

Həm də mehriban, qonaqpərvər, çörəkli, arzuların reallığa çevrildiyi şəhərdir!

Bu gözəl məkanı bir dəfə görən, daha ondan ayrılmaq istəmir.

Aralı düşəndə darıxır, tezliklə dönməyə, yenidən görməyə can atır.

Bəlkə də Bakıya böyük Azərbaycanın kiçildilmiş, yığcam variantı desək, yanılmarıq!

*Doğulduğumuz yer, yurd və paytaxt Bakı!*

*Hansı birinci yerdə durur, o da baxır bu barədə düşünərkən harada olmağımızdan!*

*Bakıda olanda Vətən çəkir, Vətəndə olanda isə Bakı!*

27 illik yurd həsrəti, 27 illik qaçqın həyatı, 27 illik ayrılıq, möhnət hər adamın çəkə biləcəyi dərd deyildi!

Çoxları yurd həsrətilə dünyasını dəyişdi...

**Ən böyük arzumuz və alqışımız isə "növbəti ili Vətəndə qarşılamaq", "tezliklə doğma torpaqda görüşmək" idi!**

**Ən nəhayət, bu müqəddəs, qarışıq hisslərlə dolu görüş baş tutdu!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaət və qəhrəmanlığı sayəsində!..**

**İlham Əliyevin dəmir yumruğunun qüdrəti sayəsində!..**

**Azərbaycan əsgəri və zabitinin misilsiz igidliyi sayəsində!..**

*Bu xoşbəxtliyi bütün Azərbaycan xalqına yaşadan Ali Baş Komandanımıza əbədi minnətdarıq!*

*Bu səadəti bizə qismət edən Azərbaycan Ordusuna, al-qanları ilə ucalan və vətəni ucaldan şəhidlərimizə daim borcluyuq!*

## Abad eldən viran yurda

Bakıdan çıxıb ölkənin hansı səmtinə doğru hərəkət etsən, boş torpaq, boş sahə görməzsən!

Yolboyu rast gəldiklərin ya bir-birindən gözəl evlərin tikildiyi yaraşıqlı yaşayış məntəqələri, ya da əkin sahələri, üzüm plantasiyaları olacaqdır.

*Müstəqillik illərində, xüsusən son dövrdə Azərbaycan başdan-başa yenidən tikilib, qurulub, abadlaşıb, gözəlləşib.*

*Ta keçmiş təmas xətlərinə qədər...*

*Bəli, bu bir faktdır ki, işğalın davam etdiyi 27 ildə Azərbaycan daim tikilib, qurulub, abadlaşıb, yeniləşib!*

İşğalın davam etdiyi 27 ildə faşist xislətli erməni isə Qarabağı yandırıb, dağıdıb, meşələri və ağacları qırıb, tarixi və mədəni abidələri məhv edib - bir sözlə, ərazini xarabalığa çevirərək orada pərakəndə şəkildə bayquş kimi ömür sürüb.

Özündən sonra isə yalnız dağıntılar və ölüm tələləri sayılan minalar qoyaraq cəhənnəm olub!

Normal məntiqlə anlamaq çox çətindir:

Niyə bütün evləri, meşələri, abidələri, qəbiristanlıqları yandırıb dağıdırsan?

Doğrudanmı erməni elə zənn edirdi ki, Azərbaycan xalqı öz torpağından əl çəkəcək, viran qoyulmuş yerlərə geri dönməyəcək, Vətənini murdar ünsürlərə bağışlayacaqdır?!

Belə düşünmək üçün, belə məntiqə sahib olmaqdan ötrü yalnız erməni olmalısan!

Axı heç zaman öz vətəni, öz torpağı olmayan başqa cür necə fikir yürüdər?

*Keçmiş təmas xəttini adlayan kimi mənzərə kəskin şəkildə dəyişir!*

*Cənnət bölgə arxada qalır...*

*Buradan oyana isə...*

İndiyə qədər Ağdamın dağıdılmış yaşayış məntəqələri, məhv edilmiş təbiəti və abidələri ilə bağlı hər birimiz çoxlu şəkilləri görmüş, videolara baxmışıq...

Ürək ağrısı, nifrət və qəzəb hissi ilə!

Dodaqaltı söylədiyimiz söyüşlər, sıxılmış yumruqlar yalnız ürək soyutmaq üçündür!

**Əsas təsəllimiz budur ki, artıq Vətənimizə qayıtmışıq!**

**Müzəffər Ali Baş Komandan ermənini bu torpaqlardan iti qovan kimi qovub!**

**Dəmir yumruğu ilə belini qıraraq qovub!**

**Ordusunu diz çökdürərək məhv edib!**

**Başını ilan başı kimi əzib!**

*İlham Əliyevin Ermənistan ordusuna tutduğu divandan sonra ordunun da, vassal dövlətin də özünə gəlməsi, dirçəlməsi bir də getdi Allah bilir nə vaxta!..*

*İndi bilmirlər ölülərini ağlasınlar, ya dirilərinin dərdini çəksinlər!*



*Hakimiyyət, xalq, ordu, müxalifət, qisasçı ünsürlər qarışıb bir-birinə!*

*İt yiyəsini tanımır!*

Hamısı başını itirib, nə edəcəyini kəsdirmir!

Nə ölən əsgərə, nə əlilə, nə evsizə yiyə duran var, nə də işsizə iş, aca çörək verən!

Dövlət, xalq, cəmiyyət - hamısı birlikdə əməllərinin bəhrəsini bol-bol dadırlar!

Hələ bu harasıdır!

**Azərbaycan xalqı isə öz müdrik Prezidenti ilə bundan sonra hansı işləri görəcəyini dəqiqləşdirib və fəaliyyətə başlayıb!**

## Göylərə ucalan qoşa minarə

Ağdamın nəbzi, adətən, şəhərin mərkəzi meydanında, unikallığı ilə seçilən bazarında və məsciddə döyünüb!

İlin və günün müxtəlif vaxtlarında bu döyüntü artıb, yaxud da zəifləyib.

*Ağdam məscidi qoşa minarəlidir!*

*Göylərə doğru ucalan minarələr məscidlərə xüsusi əzəmət gətirir.*

*Həm də uzaqdan insanlara Allah evinin yerini nişan verir.*

*Əsas təyinatı isə azan səsini ətrafa yaymaqla mömin bəndələri namaza çağırmaqdır.*

Qaydaya görə, gündə üç dəfə Ağdam məscidindən azan verilərdi.

Bu səsi eşidənlər ayaq saxlayaraq salavat çevirib yollarına davam edər, namaz qılanlar isə ibadətə tələsərdilər.

Azan vermək o qədər də asan iş deyil.

Əvvəla, yaxşı, həm də güclü səsin olmalıdır.

İkincisi, gündə üç dəfə darısqal pillələrlə minarəyə qalxıb-düşməyi bacarmalısan.

Adətən azan verənlər yaşlı insanlar olur.

Elə pilləkən çıxmağın çətinliyi də ondadır.

Yaxşı azançılardan Molla Rəşid və Alış kişi yadımda qalıb.

Bəli, Ağdamın məşhur "Alış, nəynən?" lətifəsinin qəhrəmanı Alış kişi!..



Nə sirri-Xudadırsa, azanı hamı dinləmək istəyir, onu eşidən kimi dayanaraq qulaq kəsilirlər...

Sovet ideologiyası Allahı tanımırdı, onu inkar edirdi.

Yeniyetmələr və gənclər arasında ateizm təbliğatı aparılır, pionerdən tutmuş Sov.İKP üzvünə qədər hamıya dini etiqad, məscidə getmək qadağan edilirdi.

"Dini inanclılara şərait yaradılır" görüntüsü yaratmaqdan ötrü çox az miqdarda məscidlərin fəaliyyətinə icazə verilmişdi.

Onlardan biri də Ağdam məscidi idi və bütün dövrlərdə qapıları daim hamının üzünə açıq olmuşdu.

Hətta qonşu rayonlardan da buraya molla dalınca, yaxud dua etməyə gələrdilər.

Xüsusən məhərrəmlik ayında və aşura günündə...

O zaman insanlar nəinki məscidin binasına, heç həyətinə də sığışmaz, küçədə maşın-maşına söykənər, qarşı tərəfdəki Lenin bağında adamlar toplaşaraq həyətə girməyə məqam gözləyərdilər.

Qətl sınanda isə iynə atsan yerə düşməzdi!

Ağlayan, dua edən kim, sinə döyən, zəncir vuran kim!

Bax belə günlərdə görərdin ki, heç kim Allahını unutmayıb, ondan üz döndərməyib!

"Ateistlik" isə dövrün tələbinə uyğunlaşmaq, cəza, repressiya və təqibdən yaxa qurtarmaq naminədir!

**Ağdam məscidi həmişə dinimizi, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi qoruyub saxlayan bir məkan olub!**

Ermənin dağıtdığı Ağdam məscidi...

Bu müqəddəs yerin ikinci həyatı isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə başladı.

Çoxtərəfli funksiya daşıdı.

Əsas funksiyası şəhidlərin yuyulub kəfənlənməsi, dini qaydada dəfni üçün sahibinə, habelə müxtəlif rayonlardakı insanlara çatdırılması idi.

I Qarabağ müharibəsi dövründə Ağdam Qarabağın qeyri-rəsmi mərkəzinə çevrildiyindən bu funksiyanı da yerinə yetirirdi. Azərbaycanın hər yerindən ürəyinin hökmü ilə torpaqların müdafiəsinə gələn, müxtəlif özünümüdafiə batalyonlarında döyüşən igid əsgərlərimiz həmişə Ağdamı özlərinə dayaq bilirdilər.

Hər yerdən əlləri üzülən, kimsədən kömək ala bilməyən insanlar da Ağdam məscidinə gələr, Allahın mərhəmətinə sığınaraq ondan kömək dilərdilər.

Ağdam məscidinə xeyli ziyan dəysə də, bu gün yenə öz yerindədir.

**Dövlət başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağdam məscidinə baş çəkdilər, burada Allaha dua etdilər, müqəddəs Qurani-Kərimi bağışladılar.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev məscidin həyətindən xalqa müraciət etdi, düşmənə növbəti xəbərdarlığını çatdırdı.**

*Həm də Ağdam məscidinin tezliklə təmir edilərək əvvəlkindən də yaxşı hala gətiriləcəyini, yenidən qapılarını dindarların üzünə açacağını bildirdi.*

## Sükuta dalmış baş meydan

**Ağdamın baş meydanı heç zaman boş olmazdı.**

**Gün ərzində daim dolub-boşalar, müxtəlif istiqamətlərə gedən, yaxud gəzməyə gələn insanlar üçün "qapısı" daim açıq olardı.**

Bakıdan Şuşaya gedən magistral yolun Ağdam ərazisindəki ən kəsəsi də bu meydandan keçərdi. Odur ki, gecə sübhədək maşın səsi də əskik olmazdı.

Baş meydan həm də rayonun inzibati mərkəzini ətrafına cəmləmişdi.

Məscidlə arası heç bir kilometr olmazdı.

Meydanın mərkəzində Fərhadın qaya çapan fəvvarəli heykəli qoyulmuşdu.

Külüngü dəyən yerdən su fışqırardı...

Ətrafa gözəllik və sərinlik yayırdı...

Ermənilər bu heykəli də qırıqlayaraq uzaqlara atdılar...

Hər il mayın 1-də ənənəyə uyğun olaraq baş meydanda parad qəbul edilərdi.

Əvvəlcə taxtadan tribuna qurardılar.

Sonralar onu mərmər üzlüklü daş tribuna ilə əvəz etdilər.

Meydanın bir tərəfində raykomun (rayon partiya komitəsinin) köhnə, ikimərtəbəli binası, digər tərəfində isə RİH-nin yeni tikilən üçmərtəbəli binası vardı. "Ağdam" qəzeti redaksiyası da burada idi.

Meydanın bir qırağında ikimərtəbəli (uçuqları qalmaqdadır) mehmanxana vardı.

Onun 1-ci mərtəbəsində Tələtin apteki yerləşirdi.

Ağdamda mağazaları müdirinin, yaxud satıcısının adı ilə tanıyardılar.

Məsələn, məscidin yaxınlığında "Səmədin kitab mağazası", ondan aralıda "Məcidin qəlyanaltısı" yerləşirdi.

Yaxud raykomun köhnə binasının üst tərəfində "Kamilin çörək dükanı", ondan bir qədər yuxarıda "Hüseynin dükanı" yerləşirdi.

Son illərdə mağaza, univermaq, ticarət mərkəzlərinin sayı o qədər artmışdı ki, saymaqla qurtarmazdı.

Qıtlığın hökm sürdüyü sovet dövründə Ağdam bazarında və mağazalarında nə desən tapılardı.

Dövlət Dram Teatrının binası meydana xüsusi yaraşıq verərdi (indi yalnız qarşı tərəfdəki tağları qalıb).

Sovet dövrünün tipik "Mədəniyyət evi" kimi inşa olunmuşdu.

Əvvəllər xalq teatrı bu binada yerləşirdi.

Xalq artisti Arif Babayevin "Əsli və Kərəm" operasına uşaq vaxtı burada tamaşa etmişəm.

Teatrı bizə sevdirməkdə bu binanın və buradakı tamaşaların xüsusi rolu olub.

Sovet dövrünün maraqlı mədəniyyət siyasəti vardı.

Yay aylarında Bakıdakı teatrlar mövsümü başa çatdırar, tamaşalarını dayandırardılar.

Sonra rayonlara qastrol səfərlərinə başlardılar.

Hansı rayonlarda sərinlik, tamaşalar verməyə və qalmağa yaxşı şərait vardısa, orada qərar tutardılar.

Ağdam tamaşaçı sarıdan da bol idi.

Hamı bəzənib-düzənib teatra gələr, respublikanın məşhur artistlərini, ifaçılarını görməkdən, dinləməkdən, tamaşalara baxmaqdan zövq alar, qürur duyardılar.

Axşam tamaşalarına uşaqları buraxmazdılar.

Amma, necə də olsa, tanışlıqla keçmək mümkün olardı.

SSRİ Xalq artisti Ələsgər Ələkbərovun ifasında V. Şekspirin "Otello", Səməd Vurğunun "Vaqif" əsərlərinə Ağdam mədəniyyət evinin səhnəsində baxmışam...

Otello haray çəkərək Dezdomonanı boğanda qorxub ağlamışam...

Hüseyn Cavidin "Şeyx Sənan" pyesindəki Kor Ərəbin mahnısı hələ də qulaqlarımdadır...

*Ağdamda mədəniyyət, musiqi, elm, bilik mühiti var idi.*

*Şahbulağın ağ daşından insanlar özlərinə gözəl evlər tikmişdilər.*

*Dövlət Dram Teatrının binası ilə üzbəüzdə bizim bina - doğulduğum, boya-başa çatdığım ev yerləşirdi.*

*27 ailənin yaşadığı ilk üçmərtəbəli bina...*

*İndi heç bünövrəsi də qalmayıb.*





Bu binada əsasən ziyalılar yaşayardı.

Əməkdar artist Narınc Məlikova, Xalq artisti Fatma Mahmudova qonşumuz idi.

Göz xəstəxanasının baş həkimi Nazxanım, burun-qulaq həkimi Soltan Bayramov, neçə-neçə tanınmış müəllim bu yaraşıqlı binada yaşayırdı.

Baş meydan həm də görüş, ünsiyyət qurmaq yeri idi.

Xüsusən yay aylarında...

İşdən evə qayıdanlar yemək yedikdən sonra ailə və uşaqları ilə meydana çıxar, gəzişər, necə deyərlər, havalarını dəyişərdilər.

Ali məktəbə qəbul olmuş tələbələr, yay tətilinə gələnlər meydanda gəzişməklə fəxr duyar, sinif yoldaşları ilə görüşüb söhbətləşər, gələcək planlarından danışardılar...

Üçmərtəbəli binanın arxasında Nizami parkı vardı. Dahi şairə burada heykəl də ucaldılmışdı. Park 1941-1945-ci il müharibəsindən sonra salınmışdı. Bəzəkli ağaclar, çoxsaylı skamyalar, dekorativ heykəllər, uşaqlar üçün əyləncəli karusellər burada istirahəti maraqlı edərdi.

Ağdamda 3 yay kinoteatrı fəaliyyət göstərərdi. Biri Mədəniyyət evinin arxa həyətində, biri "Müəllimlər evi"ndə, biri də kino Fazilə məxsus idi. Hamısı baş meydana yaxın idi. Ən çox tamaşaçı hind filmlərinə toplaşardı. Aralarında rəqabət olsa da, hərəsinin öz kontingenti vardı.

Hərdən səsgücləndirici ilə filmdəki hind musiqisini ətrafa yayar tamaşaçı yığardılar.



# ONU HƏM DƏ TİKİB QURACAQDIR

Ağdamın özünün tumsatanları da vardı. Ən məşhuru Bəndalı sayılırdı. Ağzı qızıl dişlə dolu idi. Tumları çox dadlı qovurardı. Gəzməyə çıxanlar hökmən tum çırtlayardılar.

Hər səhər Komxozun (rayon kommunal təsərrüfatı şöbəsi) süpürgəçiləri meydanı, parkları və küçələri deyinə-deyinə süpürərdülər.

Rayon icraiyyə komitəsinin, təzə mehmanxananın binası da meydana yaxın idi.

**Ağdamın baş meydanının ikinci həyatı müharibə dövrünə təsadüf edir.**

Əslində, Qarabağ müharibəsi bu meydanın da mahiyyətini və funksiyasını dəyişdi.

Onu yurd-yuvasından zorla qovularaq Ağdam şəhərinə pənah gətirən insanların toplaşdıqları, bu haqsızlıqlara, dövlət başçılarının fəaliyyətsizliyinə etirazlarını bildirən meydana çevirdi.

1992-ci ilin fevralında qələmə aldığım və "Həyat" qəzetində dərc etdirdiyim "Qaçqınlar meydanı" adlı yazımda bu barədə ətraflı bəhs etmişdim. Məqaləni yenidən diqqətinizə təqdim edirəm:

"Hər rayonun mərkəzində bir baş meydan olur. Burada nümayiş keçirilər, parada çıxardılar, tribuna önündən addımlayarkən "yuxarıda" duranlara əl yelləyib, bəxtəvərliklə gülümsəyərdilər. Adətən bu meydanlar "böyük Lenin"in adını daşıyırdı. Sonra çoxlarına elə həmin adət üzrə "Azadlıq" adı verildi. Ağdam şəhərində də belə bir meydan var. İcra hakimiyyəti aparatının, Qarabağ üzrə respublika qərargahının yerləşdiyi binalar da bu meydanın kənarındadır. İndi burada nə parad olur, nə də nümayiş keçirilir. Ancaq meydanın boş vaxtı da olmur. Dağ Qarabağının azərbaycanlılar yaşayan kəndlərindən qovulan qaçqınlar buraya toplaşır. Daha gülüş səsi və alqış sədaları eşidilmir. Ancaq bolluca göz yaşı axıdılır, göylərə ah-nalə yüksəlir. Kişi də ağlayır, qadın da, acından və soyuqdan gömgöy göyərmiş uşaq da. Doğrudur, hərdən sevinc yaşlarını da görmək olur... Tankın və avtomatın qabağında pərən-pərən düşərək hərəsi bir tərəfə qaçan, sonra xeyli müsibətlə uzun-uzadı piyada yol gedərək bir-birini ölmüş zənn edən qohum-qardaş, həmkəndli rastlaşanda. Sakitcə bir-birlərinin boynunu qucaqlayaraq azacıq göz yaşı axıdaraq, sonra başqaları barədə hal-əhval tuturlar. Hərdən meydanda mitinq də olur. Natiqlər respublika hökumətini qətiyyətsizlikdə, tökülən qanların qarşısını vaxtında almamaqda ittiham edir, prezidenti, müdafiə nazirini Ağdama "çağırır", ürəklərini boşaltdıqdan sonra dağılışırdılar.

1991-ci ilin oktyabrından bəri meydana gələn "dəstələr" dəfələrlə dəyişib. Dəyişməz qalan ümumi mənzərə olub.

Sübh tezdən kimisi yük maşınında, kimisi avtobusla, bəziləri isə pay-piyada meydana yığışır. Gümrah görkəm, gülümsər üz görmək qeyri- mümkündür. Hərə əlinə keçəni əyninə geymiş olur. Adətən qadınlar çiyin şalı ilə kürəklərini sarıyır, kişilər üst-üstə pencək, gödəkçə geyinirlər, Çiyni ov tüfəngli, əliavtomatlı adamlar da olur. Qadınlar meydanın yuxarı hissəsində yığışıb dəstə bağlayır, ağı deyərək üzlərini cırır, başlarını yolur, əzizlərini oxşayırlar. Kişilərdən də onlara qoşulan olur. Ancaq onlar ağı söyləmirlər. Hərdən üzlərini göylərə tutub Allahı bu zülmü götürməməyə, kömək durmağa çağırırlar. Sonra respublika qərargahından meyitləri gətirmək üçün maşın, yaxud vertolyot almaq barədə "danışıqlar" başlanır. Qərargah kömək edir, bəzən də aciz, "köməksiz" qalır...

Bu kükrəyən qəzəb dalğası, ərşə dirənən ah-nalə uzaqlara getmir. Nəinki Bakıya, hətta bir çox ətraf rayonlara belə çatmır... o ki qaldı suveren respublikanın sərhədlərindən çox-çox uzaqlara ola...

"Qaçqınlar meydanı"nda hamı qanıqara, kövrək və əsəbi olur. Burada mətbuata da inanmırlar. "Qarabağdan düzgün informasiya getmir", - deyə biz jurnalistləri məzəmmət edirlər. Televiziyadan xüsusilə narazıdırlar: "Burada qan tökülür, - orda isə bütün günü "Qarabağ şikəstəsi" oxudurlar. Guya bundan dərdimizə əlac olacaq. Hanı əsl vəziyyəti əks etdirən gündəlik xəbərlər, videoreportajlar?". Fotoaparatı işə salmaq, dəftərçə çıxarıb qeyd aparmaq kimsəyə xoş gəlmir. Kinokameraya isə heç dözmürlər. Xüsusən də yadellilərin əlində görəndə. O qədər bizim kəndlərin acınacaqlı mənzərəsini çəkib









erməni yaşayış məntəqələri adı ilə göstəriblər ki... Daha heç kimə etibar qalmayıb.

"Qaçqınlar meydanı"ndakı söhbətlər də eyni mövzuda olur. Adamlar yana-yana qoyub gəldiklərindən danışırlar: kimi ömürboyu özünün və ailəsinin boğazından kəsib tikdirdiyi evinin yandırıldığından, kimi mal-qarasının qovulub aparıldığından, kimi taxılını və qış azuqəsini, minik maşınını qoyub gəldiyindən təəssüflə söz açır. Basqınlar eyni ssenari üzrə keçirilmiş olur. Ermənilər vərəqlər atmaqla, hava telefonu ilə bir neçə günə kəndi boşaltmaq barədə xəbərdarlıq edirlər. Müddət bitəndə Xankəndidəki "sovet ordusunun" zirehli texnikası ilə kəndə yerli sakinlərdən qat-qat artıq sayda yaraqlılar yeridilir. Silahda və qüvvədə geri qalan, kömək almayan camaat qaçmağa üz tutur. Düşmən qırdığını qırır, sonra isə evlərə od vurub yandırır, nəhayət, gətirilən buldozerlərlə kəndin yerini düzləyir. Ələ keçən qızqadınlar isə rüsvay edilir...

Meydan söhbətlərindən:

Meşəli kəndindən qaçan zaman ata qoşalülə tüfəngini 14 yaşlı oğluna verib 12 yaşlı bacısını ona qoşur: "Yolda erməni quldurlarına rast gəlsən, əvvəlcə bacını vur öldür, sonra özünü", - deyə bərk-bərk tapşırır. Tələsiyən ata bu sözləri qızının yanında deyir. Onlar bir zülmlə Ağdama gəlib çatırlar. Səhəri gün qızın bədəni şişməyə başlayır. Həkimlər müayinə edib keçirdiyi güclü qorxu və həyəcan nəticəsində yaranan fəsad olduğunu müəyyənləşdirirlər.

... Göz yaşını sel kimi axıdan qadına yanındakı yaşlı kişi toxtaqlıq verir:

- Yarasını öz əlimlə sarıdım, güllə ayağından dəymişdi.

- Bəs deyirlər... - hönkürtü sözün sonrasını eşidilməz edir.

- Mənə inanmırsan? Yarası yüngüldü... Sabah gedərik Gəncəyə, xəstəxanada özün görərsən, indi gecdir...

- Evimizi də yandırıb külə döndərdilər.

Gəlinin qucağından körpə nəvəsini alan ağsaqqal qəzəbini güclə boğur:

- Cəhənnəmə yandırsınlar. Evi mən tikdirmişdim, birini də tikdirərəm. Yüz elə ev qurban olsun bu uşağın bir tükünə, - deyə nəvəsini bağrına basır.

Ağdamdakı "Qaçqınlar meydanı"ndan Qarabağın dağlıq hissəsindəki azərbaycanlılar yaşayan Tuğ, Xocavənd, İmarət-Qərvənd, Həsənabad, Cəmilli, Meşəli, Kərkicahan, Axullu, Salakətin, Zəyəm... kəndlərinin "nümayəndələri" gəlib keçiblər. İndi meydan malıbəylililərlə dolub. Növbədə isə xocalılılar dayanıb. Şuşada da vəziyyət son dərəcə ağırdır. Ondan sonra isə Ağdamdakı "Qaçqınlar meydanı" da yerini dəyişə bilər: ya Kürün o tərəfinə, ya da Xankəndiyə köçürülməsi mümkündür. "Qaçqınlar meydanı" heç olmaya da bilər. Bundan ötrü isə indiyədək etdiyimiz kimi etməməliyik. Daha Beyker də gəlib-getdi, Avropa müşahidəçiləri də..."

**İndi isə boş meydanın üçüncü dövrüdür!**

**Dağıdılmış, kimsəsiz qalmış dövrü!**

**Amma həm də yeni başlanğıc dövrüdür!**

## Oğru və qatil millət

Bu qədər xarabalıqları gördükdən sonra istər-istəməz öz-özündən xəbər alırsan:

- Görəsən erməni niyə hər şeyi və hər yeri söküb dağıdıb?

Əvvəla, sirr deyil ki, sökülən evlərdəki tikinti materiallarının alıcısı olub!

Erməni bundan pul qazanıb!

*Amma özgə evini söküb özünə ev tikənlər gərək heç zaman unutmasınlar ki, bundan heç zaman xeyir tapmayacaqlar!*

*Məhəmməd Peyğəmbər səlavatüllahın dəyərli bir kəlamını xatırlatmaq yerinə düşər: "Qəsb edilmiş kərpiclə tikilən xanə xaraba qalmağa girovdur!"*

İkincisi, heç nəyi olmayan millət dəyərlərin qədrini bilməz!

**Bu millət oğru millətdir!**

**Təkcə torpağımızı yox, musiqimizi, xalçalarımızı, mətbəximizi, alban kilsələrini də oğurlayır.**

Ermənilər yaxşı bilirdilər ki, Ağdamda qızıl diş saldırmaq dəbdə olub. Hər kəsin yaşından asılı olmayaraq, ağzında bir neçə qızıl dişi olub.

Odur ki, qəbirləri söküb, meyitlərin qızıl dişlərini oğurlayıblar!

**İnsanın, torpağın, dini abidələrin, keçmişin qədrini bilməyən millətin gələcəyi ola bilməz!**

## Dönüşün başlanğıcı

*Bura qədər danışdıqlarım hamısı xatirimdəki Ağdam idi!*

*Bir zamanlar qaynayıb daşan, yaraşıqlı evləri, abad küçələri, gözəl park və bağları, ziyalı və əməksevər insanları, məlahətli səs sahibi olan xanəndə və müğənniləri, düşmənə ağır zərbələr endirən igid oğulları ilə fəxr edən Ağdam!*

*Yiyə vay dərdindən işğala məruz qaldı!*

*Qorxaq, maymaq, səriştəsiz, şəxsi maraqları xalqın marağından üstün tutan bacarıqsız ölkə başçıları Ağdamı da köməksiz və arxasız qoydular!*

*Nə ordu yarada bildilər, nə torpaqların müdafiəsini təşkil etdilər, nə də düzgün siyasət yeritdilər!*

*Onların bəd əməllərinin ağrı-acısını bütün xalq, o cümlədən müharibənin ilk günlərindən düşmənlə qabaq-qarşıya döyüşən Ağdam çəkdi.*

Dünyanın ən varlı şəhərlərindən biri sayılan Ağdam!..

Ağdamın etdiklərinin əvəzini çıxmaq üçün düşmən onu viran qoydu!

Bu gün isə dövlətin rəhbəri və sahibi öz yerindədir!

**İlham Əliyev ordu da qurdu, müharibə də apardı, 44 gündə düşməni yerlə yeksan edərək Ağdam qarışıq torpaqları azad etdi!**

**Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsindəki zəfərlə iki əsirlik münaqişəyə birdəfəlik son qoydu, beş əsrlik tariximizdə ilk dəfə olaraq itirilən torpaqları geri qaytardı!**

Bütün Qarabağı, o cümlədən Şuşanı murdar ləpirlilərdən təmizlədi.

Azərbaycan xalqına verdiyi vədini şərəflə yerinə yetirdi!

İndi isə geniş və vüsətli quruculuq işlərinə başlanılıb.

Möhtərəm Prezidentimiz Qarabağı yenidən dirçəldəcəyinə, cənnətə çevirəcəyinə söz verib!

*Biz öz rəhbərimizə inanırıq!*

*Sözü ilə əməli bir olan müdrik rəhbərimizə!..*

❖ ❖ ❖

27 il bundan qabaq Ağdamdan çıxmışıq...

Dünyanın ən varlı, ən inkişaf etmiş əyalət şəhərlərindən birini qoyub gəlmişik.

Biz Ağdamı tərk edəndə 5 il düşmənlə gecə-gündüz çarpışan, 6 minədək şəhid verən bir şəhər qoyub gəlmişdik.

Bu şəhərdə hər şey vardı:

- bir-birindən gözəl evlər, binalar;
- yaraşıqlı küçələr, parklar bağlar;
- Məşhur Ağdam bazarı, dolu univermaqlar, ticarət mərkəzləri, mağazalar;
- Kinoteatrlar, mədəniyyət evləri, kitabxanalar, unikal "Çörək muzeyi";
- İstehsalat müəssisələri, restoranlar, kababxanalar, yeməkxanalar, çayxanalar;
- Abad qəbiristanlıqlar, üstü götürülmüş, dəmir cağlara alınmış qəbirlər;
- Və daha nələr, nələr...

İndi onların heç biri yoxdur!

Çünki ora 27 il ərzində ermənilər sahiblik ediblər!

Faşist və bayquş xislətli ermənilər!

**Qayıtdığımız Ağdam əvvəlki Ağdam deyil!**

**Amma bu viran yurda qayıtdığımıza görə dəmir yumruq sahibinə - Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq!**

**Azərbaycan əsgər və zabitlərinə minnətdarıq!**

**Şəhidlərimizin xatirəsi önündə baş əyirik!**

**Qayıda bildiyimizə görə hədsiz dərəcədə xoşbəxtik!**

Viran qoyulmuş yaşayış məntəqəsi də bizə son dərəcə əziz və doğmadır.

Ağdamda yox olan təkcə daş, divar, ağac və s. deyil.

Daha Ağdamda erməni də yoxdur!

Və heç zaman olmayacaqdır!

**Vətənin, torpağın qədrini onun əsl sahibi bilər!**

**Əminik ki, torpağı düşməndən qaytarıb alan onu həm də yenidən tikib quracaqdır!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

# Dünya mətbuatı Azərbaycan həqiqətlərindən yazır

## İtaliyanın AGİ Xəbər Agentliyi Xocalı soyqırımı barədə məqalə yayıb

İtaliyanın AGİ Xəbər Agentliyi XX əsrdə bəşər tarixinin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımına həsr edilmiş "Xocalı - Qafqazın qəlbində unudulmuş qırğın" adlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə oxuculara Xocalı soyqırımı barədə məlumat verilir, faciənin canlı şahidlərinin, jurnalistlərin xatirələri diqqətə çatdırılır.

Qeyd edilir ki, 29 il bundan əvvəl Qarabağ müharibəsi zamanı ən böyük insan qırğınının baş verdiyi Xocalı faciəsi müasir tarixin ən qanlı epizodlarından biridir. Minlərlə insan öz ev-eşiyindən didərgin salındı, yüzlərlə insan erməni silahlılarının güllələrinin qurbanı oldu.

Xocalı faciəsinin ildönümü ərəfəsində Azərbaycanda səfərdə olan məqalənin müəllifi Cüzeppe Di Donna bildirir ki, faciənin Azərbaycan üçün hansı anlama gəldiyini bilmək üçün Bakı küçələrində beş dəqiqə zamana ehtiyac var. Qırğının ildönümü vaxtı şəhərdəki saysız-hesabsız pankart və plakatlar azərbaycanlılara qarşı törədilmiş soyqırımını yada salır. 1992-ci il fevralın 26-na keçən gecə aralarında 83 uşaq, 106 qadın və 70-dən artıq yaşlı insanın olduğu 613 insan qətlə yetirildi və 1275 sakin əsir götürüldü.




Müəllif diqqətə çatdırır ki, Xocalının strateji mövqeyi onun acı taleyinə damğa vurdu. Erməni yaraqlıları gecə vaxtı şəhərə hücum etdilər.

"Ərim orduda xidmət etdiyinə görə onu güllələdilər. On yaşlı qızım əvvəlcə yaralandı, sonra aldığı yaralardan öldü. Mən öz bədənimlə onu qorumağa çalışsam da, özümü vaxtında çatdıra bilmədim. Mən digər sağ qalanların toplandığı bir yerə gətirdilər. Bizim ayaqqabı və paltarlarımızı soyundurub təpələri aşaraq Ağdama getməyə məcbur etdilər. Hava çox soyuq idi, əl və ayaqlarımız şaxtadan donaraq qaralmışdı", - deyə həmin hadisələri göz yaşları içində nəql edən Mehriban Əliyeva həlak olmuş əzizlərinin fotolarını da göstərir.

Müəllif həmin vaxt Azərbaycanda ordunun hələ yeni yaranmaqda olduğunu, Ağdamda yüngül silahlarla silahlanmış bir neçə yüz adamdan ibarət könüllü dəstələrin Xocalıdan qaçan insanları xilas etdiyini yazır. Şəhərdən qaçan insanların snayper atəşinə tutulması məsələsini isə Ermənistanın öz boynundan atmağa çalışdığı qeyd edilir.

Könüllülər batalyonuna rəhbərlik etmiş Zahid Qarayev də ağrılı günlərlə bağlı xatirələrini bölüşür: "Qırğından sonrakı günlərdə biz ərazidə ancaq kişi cəsədlərinə rast gəlirdik, lakin sonrakı günlərdə onlarca qadın və uşaq cəsədi tapdıq, onlar soyuqdan donmuşdular. Azərbaycan hərbçilərinin cəsədləri çox vaxt tikanlı məftillərə sarınmış olurdu. İyirmi yaşlı bir qız qaça bilmişdi və biz onu xilas edə bildik".

"Mənə qəfil zəng gələndə Parisdə idim. Mənə dedilər ki, Xocalıda dəhşətli hadisələr baş verib. Dərhal yola düşdüm və qırğından iki gün sonra Ağdama çatdım. Sağ qalanların üzündə heç bir ifadə yox idi. Ölənlərin cəsədlərini yığmaq üçün azərbaycanlılara qoşuldum. Bəzilərinin gözləri çıxarılmış, çoxu yandırılmışdı. Xocalıda baş verənlər bir etnik təmizləmə, soyqırımı idi," - deyən məşhur fotoqraf Rza Diqqəti AGİ üçün gördüklərini nəql edir.

Rza Diqqətinin həmin günlərdə çəkdiyi fotolar "National Geoprahic"in səhifələrində bütün dünyaya yayılmasına baxmayaraq, 1992-ci ildə baş verən bu qırğın ötən əsrin "unudulmuş qırğınları" sırasında yer aldı.

## Britaniyalı jurnalist "The Telegraph" qəzetində dərc olunmuş məqaləsində Azərbaycanla bağlı təəssüratlarını bölüşüb

Böyük Britaniyanın "The Telegraph" qəzetində Azərbaycan haqqında geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Ceyms Stivort Azərbaycana səyahət edərək ölkəmizlə bağlı təəssüratlarını bölüşüb.




"Azərbaycan - heç vaxt səyahət etməyi düşünmədiyiniz möhtəşəm ölkə" adlı məqalədə müəllif ölkəmizin görməli yerlərindən, füsunkar təbiətindən, turizm imkanlarından bəhs edib.

Bakının "Xəzərin Dubayı" adlandırıldığı məqalədə vurğulanıb ki, Qafqaz ölkələrindən ən maraqlısı "Odlar yurdu" kimi tanınan Azərbaycandır. Baxmayaraq ki, Gürcüstan səyahət mərkəzlərindən birinə çevrilib, lakin Azərbaycan daha cazibədardır.

Müəllif Azərbaycanda olarkən Şəkiyə getdiyini qeyd edib. O bildirib ki, uzun bir yol qət edəndən sonra insan yorğunluq hiss edə bilər, lakin ətrafdakı mənzərəni görəndən sonra vəziyyət dəyişir. Paytaxtdan kənardakı boş ərazilər birdən yox olur və yerini təpəliklər, üzüm bağları, tarlalar tutur.

Məqalədə 2019-cu ildə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edildiyi diqqətə çatdırılıb. Köhnə karvansarayın çay bağçasında oturub bir zamanlar tacirlərin metal, keramika və ipək alış-verişi etdiyi yerlərə baxdığını qeyd edən müəllif Xan Sarayını da ziyarət etdiyini, Şəkinin mətbəxi ilə tanış olduğunu bildirib.

Sonra o, Kiş kəndinə getdiyini, bu kəndin daşlarla döşənmiş zolaqlı yollarının çox gözəl olduğunu vurğulayıb. Kiş kəndində tanınmış norveçli səyyah Tur Heyerdalın büstünün olduğunu qeyd edən jurnalist bildirib ki, o, Azərbaycanda çox məşhurdur. Çünki norveçli səyyah Kişdə I əsrə aid kilsənin restavrasiyasını təşkil edib. "Kişdəki kilsədə mənə iki skelet göstərdilər. Mən onların nə qədər nəhəng olduğunu gördüm", - deyə müəllif əlavə edib.

Şəkidə olarkən Quba haqqında da eşitdiyini vurğulayan britaniyalı jurnalist Bakıya qayıdıb bu rayona səyahət etdiyini diqqətə çatdırıb. O, Qubanın Xınalıq kəndinin gözəlliyindən bəhs edərək buranın İncildə haqqında yazılan yerlərə bənzədiyi vurğulayıb. Qeyd edib ki, Azərbaycanın ən ucqar ərazilərindən birində yerləşən bu kənddə dağın dibi ilə axan çayın səsini eşitmək mümkündür. O, Xınalığa müasir standartlara uyğun yolun çəkildiyini, burada insanların özlərinə məxsus həyat tərzlərinin olduğunu qeyd edib. Müəllif məqalədə Xınalıq sakinləri ilə söhbətlərinə də yer verib, sakinlərin onu gəzintiyə apardıqlarını, uzaqdan Şahdağı göstərdiklərini, gözəl mənzərələr seyr etdiklərini bildirib.

Ceyms Stivort Quba rayonunun dağlıq ərazisində yerləşən Qalayxudat kəndində də olduğunu, burada onu çay içməyə dəvət edən sakinin Quba qalası haqqında maraqlı əhvalatlar danışdığını vurğulayıb. O, gəzdiyi bu ərazilərin turistik məkana çevriləcəyini, Xınalıqdan Qəbələdəki qış istirahət mərkəzinə birbaşa yol çəkiləcəyini də diqqətə çatdırıb.

## "National Geographic" jurnalı "Instagram" səhifəsində Xudafərin körpüsünün fotosunu paylaşıb

ABŞ-ın Milli Coğrafiya Cəmiyyətinin 180 milyonluq oxucu auditoriyası olan məşhur "National Geographic" jurnalı "Instagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Cəbrayıl rayonunun ərazisində yerləşən Xudafərin körpüsünün fotosunu paylaşıb. Fotonun müəllifi tanınmış fotoqraf Rəna Əfəndidir.

AZƏRTAC xəbər verir ki, paylaşımda XII əsrin abidəsi sayılan tarixi Xudafərin körpüsünün Cəbrayıl rayonu ərazisində, İran-Azərbaycan sərhədində, Araz çayı üzərində yerləşdiyi bildirilib.

Qeyd edilib ki, Cəbrayıl Azərbaycanın Dağlıq Qarabağ ətrafında yerləşən, Ermənistan qüvvələri tərəfindən işğal olunmuş, bu yaxınlarda isə Azərbaycan tərəfindən geri qaytarılmış yeddi rayonundan biridir.

Paylaşımda həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verilir. Azərbaycanın 90-cı illərdə itirdiyi ərazilərinin böyük əksəriyyətini ötən il baş vermiş müharibə nəticəsində geri qaytardığı diqqətə çatdırılıb.

Qeyd edək ki, "National Geographic" bundan əvvəl "Instagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar da paylaşıb. Həmin paylaşımda bir vaxtlar 40 min əhalinin yaşadığı, bu yaxınlarda azad edilmiş Ağdam şəhərinin təxminən 30 il Ermənistanın işğalı altında qalması nəticəsində dağıntılar içində olduğu bildirilib. Qeyd edilib ki, 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ağdam işğal olunduqdan sonra şəhərdə məsciddən başqa bütün tikililər dağıdılıb. Uzunsürən münaqişə bir milyondan çox insanın köçkün düşməsinə səbəb olub. Bundan başqa, "National Geographic" jurnalında Rəna Əfəndinin "Mən evimin hələ öz yerində qalıb-qalmadığını bilmirəm" sərlövhəli fotoreportajı da dərc edilib. Fotoqrafın erməni işğalından azad edilmiş Ağdam, Qubadlı, Füzuli və Kəlbəcər rayonlarına səfəri zamanı hazırlanmış reportajda Birinci Qarabağ müharibəsi dövründə həmin ərazilərdən qovulmuş ailələrin taleyindən bəhs edilib. Həmin materialda Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasının nəticələrini əks etdirən çoxlu fotoşəkil var. Bu fotoşəkillərdə illərboyu torpaqların azad olunmasını gözləyən məcburi köçkünlərin yorğun sifətləri, ermənilər tərəfindən yandırılmış torpaqlar, ermənilər həmin əraziləri tərk edəndən əvvəl qırdıqları elektrik xətləri, Ağdam, Füzuli və azad edilmiş digər rayonlarda kütləvi dağıntılar görünür.




## "Jewish Press" İnformasiya Agentliyi Ermənistanda hökm sürən faşizm və antisemitizm barədə məqalə yayıb

ABŞ-da fəaliyyət göstərən nüfuzlu "Jewish Press" İnformasiya Agentliyi israilli siyasi analitik Rahel Avraamın "Ermənistanda baş verən son dəyişikliklərə baxmayaraq, ölkədə faşizm və antisemitizm hökm sürür" sərlövhəli məqaləsini yayıb.

Müəllif yazır ki, martın əvvəlində İsrailin "HaYom" qəzetində dərc olunmuş bir məqaləsində amerikalı jurnalist Patrik Lankasterin Ermənistanın paytaxtı İrəvan şəhərinin Respublika meydanında millətçi bir təşkilatı təmsil edən erməni ilə ünsiyyətdə olması və həmin ermənin öz antisemitizm fikirlərini onunla bölüşməsi barədə məlumat verib. Ermənistan vətəndaşı sosial şəbəkələrdə paylaşılmış həmin səs yazısında Svastikanın Hind-Avropa ari xalqlarının simvolu olduğunu, Hitlerin yəhudiləri təhrikçiliklə məşğul olduqları və təhlükəli millət hesab etdiyi üçün öldürdüyünü bildirib.

Müəllif ABŞ-ın Antidefamasiya Liqasının 2014-cü ildə keçirdiyi sorğuya istinad edərək, Ermənistan əhalisinin 90 faizinin Holokost faciəsinin baş verdiyini təsdiqlədiyini, ancaq ermənilərin 58 faizində antisemitizm meyillərinin və yəhudilər barədə mənfi rəyin mövcud olduğunu bildirib. İsrailli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qut "Jewish Press" informasiya agentliyinə müsahibəsində İsrailin Diaspor Məsələləri Nazirliyinin son antisemitizm hesabatına əsasən, İkinci Qarabağ müharibəsindən bəri Ermənistanda antisemitizm meyillərinin artmasının müşahidə olunduğunu deyib. "Monoetnik dövlət olan Ermənistanda antisemitizm və millətçilik dalğasının getdikcə artdığı müşahidə olunur. Son günlərdə İrəvandakı Holokost qurbanlarının xatirəsinə ucaldılmış memoriala qarşı vandalizm aktı törədilib, İsrail ilə Ermənistan arasındakı dostluq münasibətlərinin şərəfinə ucaldılmış digər bir abidə isə təhqir olunub", - deyə Arye Qut bildirib. Ekspert antisemitizmin və neonasizmin populyarlaşdırılmasının Ermənistanın dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildiyini və faşist ideologiyasının "njdeizm" adı altında Ermənistanın təhsil müəssisələrinin proqramına daxil edildiyini vurğulayıb. Arye Qut onu da bildirib ki, 1992-ci il fevralın 26-da erməni silahlı qüvvələrinin Xocalıda törətdikləri vəhşiliklər nəticəsində minə yaxın Azərbaycan vətəndaşı öldürülüb, qadınlar, uşaqlar və qocalar ağlasığmaz işgəncələrə, təhqirlərə və həqarətə məruz qalıblar.

Ekspert həmçinin qeyd edir ki, Ermənistan İsrailin Cənubi Qafqazdakı strateji tərəfdaşının məhz Azərbaycan olduğunu qəbul edə bilmir.

## "BCI" beynəlxalq media portalında Ağdam rayonundan bəhs olunan videomaterial yerləşdirilib

"BCI" beynəlxalq media portalının əməkdaşı Ağdam rayonu ilə bağlı yunan dilində videomaterial hazırlayıb.




AZƏRTAC xəbər verir ki, videomaterialda Ağdamı "Qafqazın Xirosiması" adlandıran müəllif bildirir ki, rayon təxminən 30 ildən sonra erməni təcavüzündən azad edilib.

Vurğulanır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əvvəl Qarabağın incisi sayılan Ağdam bölgənin ticarət mərkəzi olub, burada üzümçülük və şərabçılıq geniş inkişaf edib. İşğal nəticəsində rayonun əhalisi doğma torpaqlarından didərgin salınıb, rayon isə darmadağın edilib. Müəllif hazırkı Ağdamı infrastrukturu, mədəni irsi olmayan "kabus şəhər" adlandırır. Diqqətə çatdırılır ki, buradakı bütün muzeylər, tarixi abidələr, xəstəxanalar, məktəblər, ictimai binalar və evlər məhv edilib, avtomobil və dəmir yolları dağıdılıb. Ağdam şəhərində yalnız məscid qalıb.

Müəllif qeyd edir ki, rayonun bərpası üçün müəyyən vaxt lazım olacaq. Lakin bərpa işlərindən əvvəl bölgəni minalardan zərərsizləşdirmək lazımdır. Bildirilir ki, artıq bu işlər həyata keçirilir.

## *Erməni fermer:* "Türkiyə və Azərbaycan ilə sərhədlər bağlıdır..."

### Məhsulu alıcıya çatdırana qədər ya turşuyur, ya da qızıl qiymətinə başa gəlir

Biz Rusiyaya şaftalı, üzüm, yaxud qaysı göndəririk, amma bu çox çətindir. Türkiyə və Azərbaycan ilə sərhədlər bağlı olduğuna görə Gürcüstandan keçməli oluruq, amma Gürcüstan da sizinlə dalaşıb, MDB-dən çıxıb. Bir sözlə, məhsulu alıcıya çatdırana qədər o, ya turşuyur, ya da qızıl qiymətinə başa gəlir.

AZƏRTAC xəbər verir ki, erməni fermer Sergey Ovanesyan bu sözləri rusiyalı jurnalist, Rusiyada çıxan "Arqumentı ı faktı" qəzetinin müxbiri Georgi Zotov ilə söhbət zamanı söyləyib.

G.Zotov Ermənistandan hazırladığı reportajların nəşrini davam etdirir. Onun qonşu ölkədən hazırladığı növbəti material "Dəhşət filminin komediyası. Ermənistan SSRİ dağılandan sonra 30 il necə yaşayıb" sərlövhəsi ilə təqdim edilib.

Jurnalist yazır ki, Sovet İttifaqı dağılandan sonra Ermənistanda sənaye bərbad günə düşüb, müəssisələrin 80 faizi müflisləşib. Rusiya Federasiyası Ermənistandan 800 milyon dollarlıq, yəni ona satdığından iki dəfə az məhsul alır.

Statistik məlumata görə, bunlar, əsasən, qida məhsullarıdır. Məqalə müəllifinin fikrincə, orada əsasən konyakdan söhbət gedir.

İnformasiya texnologiyaları firmasının əməkdaşı Riçi Qriqoryan G.Zotov ilə söhbət zamanı qeyd edib ki, Ermənistanda istər özü üçün, istərsə də ailəsi üçün xoş gələcək görmür. Qriqoryan qəmli-qəmli deyib: "Həyat yoldaşım peşəkar jurnalistdir. Mən onunla bərabər Yerevandan Moskvaya köçüb getməyə hazırlaşıram. Ermənistanı çox sevirəm, amma burada istər özüm üçün, istərsə də uşaqlarım üçün xoş gələcək görmürəm. Hətta rus pulu ilə hesablayanda 100 min rubl həddində yüksək əməkhaqqı alan tanışlarım da bu respublikanı tərk etməyə hazırlaşırlar. Belə əhvalda olanlar çoxdur".

Jurnalist yazır: "Təqribi hesablamalara görə, 1991-ci ildən bəri bu ölkədən 1 milyona yaxın erməni mühacirət edib (bəziləri isə belələrinin 1,5 milyon olmasından danışır). Bu, ölkə əhalisinin üçdəbiri deməkdir. Biznesmen Armen Martirosyan deyir: "Mənim bir qardaşım ABŞ-da mağaza sahibidir, o biri qardaşım Rusiyada bar açıb. Uşaqlarım Moskvada oxuyurlar, arvadımın atası Fransada yaşayır". "Bəs Ermənistanda kim qaldı?", - deyə maraqla soruşuram. "Babam. Onun xasiyyəti çox tünddür, arvadımın atası ilə danışmır". - "Nə üçün?" - ona görə ki, babamı özü ilə bərabər Fransaya aparmayıb".

"AiF" nəşrinin müxbiri xatırladıb ki, Azərbaycanla müharibə illərində Ermənistan blokada vəziyyətinə düşüb. Elektrik stansiyalarında mazut və qaz yoxdur, ərzaq məhsulları tədarükü dayandırılıb, benzin yoxa çıxıb. 1992-ci ilin noyabr ayından bəri evlərə sutkada 1 saat elektrik işığı verilib. Şamlar hədsiz bahalaşıb, ermənilər bazarlarda qədim kerosin lampaları alırlar. Bəzən bir evin bütün sakinləri pul yığıb benzinlə işləyən generator alırlar ki, bir qədər işıq olsun. Hökumət binalarından gizli yolla kabel çəkirlər. Yalnız mənzildə kimsə öldüyü hallarda elektrik işığı verirdilər. O dövrdə ermənilər arasında belə bir zarafat yaranmışdı: "İşıq olmasını istəyirəm, bəlkə sizin rəhmətliyi bir günlük mənə borc verəsiniz?" Biznesmen Vladimir Mirzoyan deyir: "Elə təsəvvür yaranmışdı ki, ermənilər dəhşət filmindədir, amma biz oraya bir qədər komediya elementi əlavə etmişik".

### Ömrün vaqonda keçmiş 32 ili

G.Zotov Yerevanın mərkəzində Gümrüdən gəlmiş bir qrup qəzəbli qadınla söhbət edir. Bu qadınlar Yerevanda hökumət binalarının qarşısında piket keçirməyə gəliblər, yaşayış yeri verilməsini tələb edirlər. 1988-ci il dekabrın 7-də Gümrünü və Kirovakanı yerləyeksan etmiş dəhşətli zəlzələdən sonra 32 il keçib.

Materialda deyilir: "Təsəvvür edin ki, Leninakanda (Gümrü) evlərini itirmiş 5000 nəfər hələ də şifer və faner parçalarından düzəldilmiş kiçik vaqonlarda yaşayır. Əvvəllər belə vaqonlarda inşaatçılar qalırdı. Məmurlar deyirlər ki, pul yoxdur. Özlərinin boş yerə xərcləməyə pulları var, amma insanları tövlələrdən normal mənzillərə köçürmək üçün pul tapmırlar. Ermənistanın bütün prezidentləri, bütün baş nazirləri dövründə eyni cəfəng sözləri eşidirəm, onlara tüpürmək istəyirəm!"

Jurnalist yazır ki, 1989-cu ildə Ermənistanda 51.500 rus yaşayırdı, indi isə onların sayı təqribən 11.900 nəfərdir. Zəlzələdən sonra çox adam köçüb Rusiyaya gedib. İqtisadiyyatda və məişətdə yaranmış dəhşətli vəziyyət insanları qaçmağa məcbur edir.

Rusiyalı jurnalist yazır: "Böyük Vətən müharibəsində 300 min erməni həlak olub, respublikanın 84 sakini Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Eyni zamanda Yerevanda şəxsən mənim üçün çox xoşagəlməz bir yer var - 2016-cı ildə ovaxtkı prezident Serj Sarkisyanın "rusiyapərəst" hakimiyyət orqanları tərəfindən orada Qaregin Njdeyə tunc heykəl qoyulub. Bu adam Hitlerə cani-dildən xidmət edib, Vermaxtın erməni legionunu yaradıb, sovet hərbi əsirlərini nasist Almaniya tərəfində vuruşmağa təşviq edib. 1944-cü ildə Njde qızıl əsgərlər tərəfindən Bolqarıstanda həbs edilib, 1955-ci ildə Vladimir şəhərindəki məşhur mərkəzi həbsxanada ölüb.

69 yaşlı pensiyaçı Aşot Baqdasaryan bu heykəlin sahibinə haqq qazandırmağa çalışaraq deyir: "Njde Ermənistanı çox sevirdi, onun yolunda canından keçib, sadəcə, səhvə yol verib, düzgün yol tutmayıb".

"Məncə o, Hitleri daha çox sevirdi, - deyə müsahibinin sözünü kəsirəm. Bilirsinizmi, ola bilsin, ataman Krasnov və ya general Vlasov da Rusiyaya çox səmimi hisslərlə yaşayıblar. Amma milyonlarla insanın qatili ilə qucaqlaşandan sonra bu hisslərin əhəmiyyəti yoxdur".

# İlham Əliyev bir daha Ermənistana çıxış yolunu göstərdi

*Əvvəli 1-ci səh.*

1992-ci ildən üzv olduğumuz ATƏT ilə əlaqələr getdikcə genişləndirilib və həmin əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Azərbaycan təşkilatın əsas sənədləri olan Helsinki Yekun Aktına (1992), Paris Xartiyasına və Avropa Təhlükəsizliyi Xartiyasına qoşulub (1999).

Ölkəmiz həmçinin ATƏT-lə demokratikləşdirmə sahəsində də əməkdaşlıq edir. Xatırladaq ki, respublikamızda keçirilən seçkilərdə bu qurumun nümayəndələri müşahidələr aparıb, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xətti ilə müxtəlif layihələr reallaşdırılıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT çərçivəsində əməkdaşlıq Azərbaycanın xarici siyasətində xüsusi yer tuturdu. Ancaq işğalçı Ermənistan beynəlxalq hüquqa məhəl qoymurdu. Ona görə də Azərbaycan münaqişəni güc yolu ilə həll etdi. Artıq münaqişə bitib və bu gün Azərbaycan qalib ölkə kimi xarici siyasət kursunun yeni inkişaf istiqamətlərini müəyyənləşdirir.

## Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpasına başlayıb

ATƏT sədri ilə görüşdə Prezident İlham Əliyev bir daha Ermənistanla aparılan əvvəlki danışıqlardan söz açaraq dedi ki, bu proses artıq tarixə qovuşub. Kommunikasiyaların açılması ilə bağlı danışıqların müxtəlif səviyyələrdə bir neçə mərhələsi baş tutub.

Məhz yeni kommnukasiyaların açılması məsələsi müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq.

Azərbaycan Prezidentinin söylədiyi kimi, bu da bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Azərbaycan buna hazırdır: "Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik".

Hər kəsə bəllidir ki, artıq Azərbaycan Qarabağda yeni infrastruktur layihələrinə start verib. Əgər Ermənistan Moskva Bəyannaməsinin şərtlərinə tam əməl edərsə, bu ölkə də həmin layihələrdən bəhrələnə bilər. Əks təqdirdə yenə də bu ölkə Azərbaycanın razılığı olmadan hər hansısa bir layihədə iştirak edə bilməyəcək.

Yəni İlham Əliyev Ermənistana bir daha mesaj ünvanlayaraq düşdükləri acınacaqlı durumdan, səfalətdən qurtulmaları üçün yol göstərdi. Bütün bunları İlham Əliyev ATƏT sədrinin diqqətinə çatdırdı. Prezident dedi ki, Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlayıb. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb: "Həqiqətən də, işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir".

Ann Linde isə bildirdi ki, ATƏT-in əsas prioriteti Avropada təhlükəsizlik sistemini müdafiə etmək və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli konsepsiyaya dəstək olmaqdır. ATƏT münaqişənin həllinə töhfə vermək üçün əlində olan imkanları bir daha nəzərdən keçirəcək. Odur ki, bu kontekstdə, əlbəttə, beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

Göründüyü kimi, Azərbaycanın ATƏT-lə münasibətlərində yeni mərhələ başlayır. Prezident bir daha bəyan etdi ki, hər zaman öz prinsiplərinə sadiq qalan Azərbaycan bundan sonra da bu siyasətini davam etdirəcək. Bu da ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyinin üçüncü cildi işıq üzü görüb




AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyinin üçüncü cildi nəşr edilib. İnstitut Elmi Şurasının qərarı ilə nəşr olunan üçüncü cild "Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)" bölməsini əhatə edir.

"Elm" nəşriyyatında işıq üzü görmüş 1092 səhifəlik kitab AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin "Orta əsrlər Azərbaycan ədəbiyyatı: anadilli ədəbiyyat epoxası" və Azadə Rüstəmovanın "Orta əsrlər Azərbaycan ədəbiyyatının ümumi mənzərəsi və inkişaf mərhələləri" adlı irihəcmli tədqiqatları ilə başlayır.

Kollektiv elmi-yaradıcılıq məhsulu olan fundamental "Azərbaycan ədəbiyyatı tarixi" kitabının üçüncü - "Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)" cildində anadilli bədii yaradıcılığın ilk nümunələrinin araşdırılması zamanı bu ədəbiyyatın həm ümumtürk qaynaqları, həm də Yaxın və Orta Şərq ədəbiyyatı ənənələri nəzərə alınıb. Orta əsrlər türk dilli və fars dilli Azərbaycan şairlərinin yaradıcılığı hərtərəfli tədqiq edilməklə bərabər, Məhəmməd Füzulinin təkraredilməz sənət incilərinin çağdaş ədəbiyyatşünaslıq elminin nailiyyətləri səviyyəsində interpretasiyasına xüsusi önəm verilib.

Sanballı tədqiqat oçerklərindən ibarət kitabda İsa Həbibbəyli, Ataəmi Mirzəyev, Azadə Rüstəmova, Möhsün Nağısoylu, Nüşabə Araslı, Fəridə Əzizova, Teymur Kərimli, Zəkulla Bayramlı, Çingiz Sadıqoğlu, Qədim Qubadov, Firudin Qurbansoy, Vəcihə Feyzullayeva, Səltənət Əliyeva, Rəhim Əliyev, Səadət Şıxıyeva, Əbülfəz Kərimov, Könül Hacıyeva, Tahir Məhərrəmov, Azadə Musabəyli, Zəhra Allahverdiyeva, Gülçin Babayeva, Paşa Kərimov, Məhərrəm Qasımlı kimi alimlərin tədqiqatları yer alıb.

Kitabın birinci fəsli "XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı", ikinci fəsli "XV əsr Azərbaycan ədəbiyyatı", üçüncü fəsli "XVI əsr Azərbaycan ədəbiyyatı"nı əhatə edir. Azərbaycan, türk, rus, ərəb, fars, özbək, türkmən, tatar, ingilis və digər Avropa dillərində 869 sayında ədəbiyyat siyahısını Səadət Şıxıyeva, Səltənət Əliyeva, Fatimə Kərimova və Fidan Hacıyeva sistemləşdirib.

Kitabda eyni zamanda ingilis və rus dillərində ətraflı xülasələr yer alıb.

***"Azərbaycan"***

# Təlimlərdə xəritə üzərində tapşırıqlar icra olunur





Əməliyyat-taktiki təlimlərində plana uyğun olaraq qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar səhra idarəetmə məntəqələrində xəritələr üzərinə işlənilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mövcud vəziyyətə uyğun hazırlanan məruzələr sərəncam şəklində icra edilməsi məqsədilə müasir rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə komandir-rəis heyətinə çatdırılır.

Ehtiyatda və mərkəzi tabelikdə olan birləşmələrin səhra idarəetmə məntəqələri təyin edilmiş rayonlara çıxarılır.

* * *

Əməliyyat-taktiki təlimlərin planına əsasən, həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

* * *

Müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlimlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyat-taktiki təlimlərin niyyətinə uyğun olaraq, daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən raket və artilleriya bölmələri təyin olunmuş marşrutlarla hərəkət edirlər.

# Vaksinasiyadan sonra insanlar deyil, virus təcrid ediləcək

*Əvvəli 1-ci səh.*

Budur, artıq Böyük Britaniyada ortaya çıxan koronavirusun daha yüksək yoluxdurma imkanına malik növü 110-dan çox ölkədə qeydə alınıb. Cənubi Afrikada tapılan koronavirusun ştammının coğrafiyası isə 58 ölkəyə qədər genişlənib, mövcudluğu əvvəlcə Braziliya və Yaponiyada aşkar edilən ştammı isə hazırda 32 ölkədə dövr edir.

Braziliyalı həkim Migel Nikolelis isə ölkəsini COVID-19-a səbəb olan və xəstəliyə nəzarət edilmədiyi halda mutasiya oluna biləcək SARS-CoV-2 virusunun yeni ştammlarının episentri olduğunu bəyan edib. ABŞ-ın Dyuk Universitetinin professoru Migel Nikolelisin sözlərinə görə, Braziliya və ya Amazon variantı kimi tanınan bu yeni ştamm daha ötürücü olsa da, onun ölümlə nəticələnəcəyi haqqında hələ ki dəqiq məlumat yoxdur. Bu xəbərdarlıq əlamətidir, çünki ötürülmə mutasiyaya və koronavirusun yeni növlərinin ortaya çıxmasına səbəb ola bilər. Təhlükə ondan ibarətdir ki, koronavirus Braziliyada sürətlə yayılır və gündə 70 mindən 80 minə qədər insanı yoluxdura bilir. Bu isə virusda inanılmaz sayda mutasiyalar yaradır.

Filippin hökuməti də ölkəsində koronavirusun yeni variantının aşkarlandığını təsdiqləyib. Koronavirusun yeni ştammına ölkədə ümumilikdə 98 nəfər yoluxub. Bununla yanaşı, Səhiyyə Nazirliyi Braziliyadan qayıdan filippinlidə koronavirusun Braziliya ştammının tapıldığını bildirib.

Mutant virus daha sürətli yayılsa da, ölümcüllük qabiliyyəti o qədər də yüksək deyil. Tibb mütəxəssisləri ötən ilin sonlarından tətbiqinə başlanılan koronavirus peyvəndlərinin mutant viruslara qarşı da effektli olduğu qənaətindədirlər. Alimlər hesab edirlər ki, mutasiya çox fərqli, dəyişik olacağı təqdirdə peyvəndi də mutantlaşdırmaq lazım gələcək. Ancaq bu o qədər də çətin olmayacaq. Vaksinin istehsal prosesi zaman yaşanan çətinliklə müqayisədə xeyli aşağı olacaq.

Hazırda dünyanın bir sıra ölkələrində vaksinasiya davam edir. Bu prosesdə maraqlı məqam odur ki, koronavirusa qarşı yeni peyvəndlərin də istifadəsinə başlanılır. Avropa İttifaqının dərman tənzimləyicisi olan Avropa Dərman Agentliyi (EMA) ABŞ-ın "Johnson and Johnson" şirkətinin istehsal etdiyi tək doz koronavirus vaksininin Avropa İttifaqında istifadəsini tövsiyə edib. Qərarın ən qısa zamanda Aİ komissiyası tərəfindən qəbul edilməsi gözlənilir.

"Johnson and Johnson" vaksini Aİ-də təsdiqlənən dördüncü koronavirus peyvəndi olub. "Əldə edilən məlumatlar kontekstində vaksinin təsirli və etibarlı olduğunu müəyyənləşdirdik və bu, Aİ ölkələri tərəfindən də istifadə oluna bilər", - EMA-nın açıqlamasında deyilir. ABŞ, Cənubi Afrika və Latın Amerikası ölkələrində 44 min insan üzərində sınanan "Johnson and Johnson"un tək dozluq vaksininin 67 faiz təsirli olduğu, xəstəlik və ölümə qarşı güclü müdafiəni təmin etdiyi təsdiqlənmişdi.




Peyvəndin ABŞ-da istifadəsi fevralın 28-də qərara alınmış, vaksin martın 1-dən paylanmağa başlanmışdır. Bu vaksini soyuducuda üç aya qədər saxlamaq mümkündür.

"AstraZeneca" peyvəndinin faydaları vaksin haqqında olan neqativ məlumatları üstələyir, istifadənin davam edilməsi tövsiyə olunur". Bunu ÜST nümayəndəsi Marqaret Harris "RİA Novosti"yə açıqlamasında bildirib. Onun sözlərinə görə, Avropa ölkələrinin peyvənddən imtina etməsi ilə bağlı məlumatları araşdıran ÜST ondan istifadəyə davam olunmasını tövsiyə edib.

Qeyd edək ki, Aİ-yə üzv 10 ölkə qan laxtalanması ilə bağlı məlumatların artmasından sonra "AstraZeneca" peyvəndi ilə vaksinasiya proqramını müvəqqəti dayandırıb. "AstraZeneca" şirkəti isə dərmanın təhlükəsiz olduğunu bildirib. Daha sonra şirkət peyvəndin Aİ-yə tədarükünü azaltmağa qərar verdiyini açıqlayaraq mart ayının sonuna qədər təxminən 30 milyon, aprel ayında isə 20 milyon dozaya qədər peyvənd satmağı planlaşdırdığını bildirib. Beləliklə, şirkət müqavilə öhdəliklərinin yalnız üçdəbirini yerinə yetirəcək.

Bu məqamda bildirək ki, ölkəmizin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə GAVİ ALLİANCE arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair 2020-ci il 18 sentyabr tarixli sazişə əsasən, İsveçin "AztraZeneca" şirkətinə məxsus 432 000 doza "COVID-19" vaksin dərman vasitəsini alacaq. İdxal prosesi 180 gün müddətində həyata keçiriləcək.

Hələlik isə Azərbaycanda vaksinlənmə Çində istehsal olunmuş "CoronaVac" peyvəndi ilə aparılır. Yanvarın 18-də tibb işçilərinin peyvəndlənməsi ilə start götürən proses "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq respublikamızın bütün rayonlarda uğurla davam edir. Ölkəmizdə hazırkı dövrədək 455 mindən çox insan COVID-19 əleyhinə peyvəndlənmə prosesində iştirak edib.

Səhiyyə Nazirliyi Rusiya istehsalı olan "Sputnik V" peyvəndini də istifadə üçün təsdiq edib. Bu peyvənd artıq 50-dən çox ölkədə qeydiyyata alınıb və koronavirus infeksiyasına qarşı müvəffəqiyyətlə istifadə olunmaqla yüksək effektivlik göstərir. Nazirlikdən bildirilib ki, bu peyvəndin yaxın zamanda ölkəyə gətirilməsi barədə danışıqlar davam etdirilir.

Hazırda bütün dünya ölkələri ümidlərini peyvənd prosesinə yönəldib. Hər kəs bir ildən çoxdur xəstəlik, ölüm, iqtisadi çətinliklər gətirən, rifah səviyyəsinin aşağı düşməsinə səbəb olan pandemiyaya qarşı ən güclü silahın vaksin olduğu fikrindədir. BMT-nin Baş katibi Antonio Quterreş də "bədbəxtliklər sunamisi" olan qlobal pandemiyaya qarşı peyvənd kampaniyasının ümid verdiyini qeyd edib. O, qlobal vaksinasiya kampaniyasını "bütün zamanların ən böyük mənəvi sınağı" adlandırıb və bəşəriyyətin yalnız bundan keçərək dünya iqtisadiyyatını yenidən bərpa edə biləcəyini deyib. Qeyd edib ki, bu, özümüzü təcridetmə əvəzinə virusu təcrid edə biləcəyimiz yeganə yoldur.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Koronavirusun üçüncü dalğası Avropanı vurdu



Avropa artıq yeni tip koronavirus pandemiyasının üçüncü dalğasını yaşayır. "The Guardian" qəzeti xəbər verir ki, xəstəliyin yayılmasına səbəb kimi virusun yeni mutasiyaları və əhalinin peyvəndlənməsi kampaniyasının ləng getdiyi göstərilir.

Avropada COVID-19-a yeni yoluxanların sayının gündəlik artımı ötən ayın əvvəllərindən bəri rekord həddə çatmışdır ki, bu da bəzi ölkələrdə məhdudiyyətlərin bərpasına, komendant saatının və hətta faktiki olaraq karantinin tətbiqinə gətirib çıxarmışdır.

Almaniyada üçüncü dalğanın başlandığı etiraf olunmuş, İtaliyada isə keçən yaz baş vermiş faciəvi hadisələrin təkrarlanmasından ehtiyatlanaraq sərt məhdudiyyətlər tətbiq edilmişdir. Fransanın paytaxt bölgəsində vəziyyət son dərəcə qorxuludur: ölkənin Səhiyyə nazirinin dediyinə görə, hər 12 dəqiqədə bir parisli reanimasiya şöbəsinə daxil olur. Rekord gündəlik artım Polşa, Macarıstan və Çexiyada da qeydə alınmışdır.

## Türkiyə Suriyanı dinc sakinləri atəşə tutmaqda günahlandırır



Hələbdəki Kuveyres Hava Limanından atılan raketlər Suriyanın şimalında, Cərablus və Bab rayonlarında yaşayış məntəqələrini və neft çənlərini vurmuş, nəticədə mülki şəxslər yaralanmışlar. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Bu rayonlar Türkiyə Silahlı Qüvvələrinin "Fərat qalxanı" antiterror əməliyyatı zonasındadır. Hücum hökumət qoşunlarının nəzarət etdiyi mövqelərdən ballistik raketlər və çoxlüləli raket qurğuları vasitəsilə həyata keçirilmişdir.

Hücumdan az sonra Rusiya mülki şəxslərə hücumu dayandırmağın zərurəti barədə xəbərdarlıq edilmiş, müəyyənləşdirilmiş hədəflərə cavab atəşi açılmışdır.

## Myanmada etiraz aksiyaları zamanı 38 nəfər həlak oldu



Srağagün Myanmada etiraz aksiyalarının gedişində azı 38 nəfər həlak olmuş, təxminən 80 nəfər yaralanmışdır. Bu barədə Myanmada Siyasi Məhbuslara Yardım Assosiasiyası məlumat vermişdir.

Assosiasiyanın məruzəsində deyilir ki, etiraz aksiyalarının dağıdılması nəticəsində 126 nəfər, o cümlədən ötən bazar günü azı 38 nəfər öldürülmüşdür. Martın 14-ə olan vəziyyətə görə, 2156 nəfər saxlanılmışdır, onların 1837-si, o cümlədən həbs cəzası almış üç nəfər hələ də buraxılmamışdır.

BMT Baş katibinin Myanma üzrə xüsusi elçisi Krinstin Şraner Burgener ölkədə qan tökülməsinin davam etməsini qətiyyətlə pisləmiş, beynəlxalq ictimaiyyəti Myanma xalqı və onun demokratik amalları ilə həmrəylik əlaməti olaraq birləşməyə çağırmışdır.

## Qazaxıstan məktəbləri 2023-cü ildə latın qrafikalı əlifbaya keçəcək




Qazaxıstan 2023-cü ildə latın qrafikasının tətbiqi ilə 12 illik təhsilə keçmək niyyətindədir. Bu barədə Təhsil və Elm naziri Asxat Aymaqambetov məlumat vermişdir.

Nazir qeyd etmişdir ki, orta təhsilin inkişafı üçün 2023-cü ildən etibarən latın qrafikası tətbiq etməklə tədricən 12 illik təhsilə keçmək niyyətindəyik.

12 illik təhsilə keçid çərçivəsində Dövlət Standartının, tədris planlarının və vahid tədris proqramlarının məzmununun dəyişdirilməsi planlaşdırılır. Riyaziyyat, informatika və dilləri prioritet fənlərə çevirmək nəzərdə tutulur. Həmçinin dünya tarixi və Qazaxıstan tarixi üzrə vahid dərsliklər tətbiq etmək planlaşdırılır.

## Bolqarıstan sərhədlərini turistlərin üzünə açır



Bolqarıstan xarici turistləri qəbul etməyə hazırlaşır. Turizm naziri Maryana Nikolova məlumat vermişdir ki, yeni mövsüm mayın 1-də açılacaq.

Nikolova qeyd etmişdir ki, Səhiyyə Nazirliyi turistlərin ölkədə qalması üçün şərtləri hazırlayıb turizm şirkətləri ilə razılaşdırmışdır. İstirahət edənlər üçün xüsusi yerləşmə və qidalanma qaydaları tətbiq ediləcək. Ölkənin hakimiyyət orqanları xarici vətəndaşların giriş şərtlərini də hazırlayır və onları əvvəlcədən xəbərdar edəcək. Bolqarıstanı ziyarət etmək istəyənlər yaşayış yerlərinə təhlükəsiz keçid üçün "yaşıl dəhlizlər"lə təmin ediləcəklər.

Nazir əlavə etmişdir ki, turizm obyektləri artıq qonaqları qəbul etməyə hazırlaşa bilər və epidemiya əleyhinə bütün tədbirlər yaxın vaxtlarda elan ediləcək.

# Xocavənd rayonunda mülki şəxsin minaya düşməsi ilə bağlı cinayət işi başlanıb

Martın 13-də saat 16 radələrində 1980-ci il təvəllüdlü İman Baxşaliyevin Xocavənd rayonunun işğaldan azad edilmiş ərazisində minaya düşməsi barədə rayon prokurorluğuna məlumat verilib.

Xocavənd Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış araşdırmalarla İman Baxşaliyevin kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olarkən həmin ərazidə minaya düşməsi nəticəsində sağ ayağının topuqdan aşağı ətrafının amputasiyası və digər çoxsaylı xəsarətlər alması müəyyənləşdirilib.

Faktla bağlı Xocavənd Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.




# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Memarlıq inciləri



# "Güllələnmiş heykəllər" yurduna döndü

**Ötən əsrin sonuncu onilliyində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində azərbaycanlılar öz evlərini, yurdlarını tərk etmək məcburiyyətində qaldılar. İşğalçılar kütləvi qətllər, qarətlər törətdilər. Erməni vandalları tərəfindən tarixi, mədəni abidələrimiz də dağıdıldı, muzeylərimiz, kitabxanalarımız, ev muzeyləri qarət edildi.**

1992-ci il may ayının 8-də, Şuşanın işğalı zamanı da şuşalıların həm evləri, həm də qədim, tarixi-mədəni abidələri erməni qəsbkarlarının qurbanına çevrildi. Həmin gün Şuşanı əsl sakinlərindən məhrum edən, onları doğma şəhərindən, evindən ayırıb məcburi köçkünə çevirən işğalçıların bununla da nifrəti, kini bitmədi. Beynəlxalq Haaqa Konvensiyasının tələblərinə məhəl qoymayan ermənilər hətta heykəlləri belə atəşə tutmaqdan çəkinmədilər. Dahi bəstəkar Üzeyir Hacıbəylinin, məşhur azərbaycanlı vokalist Bülbülün və şairə Xurşidbanu Natəvanın muzeylərini də qarət edib viranə qoydular. Erməni işğalçıları Azərbaycan musiqisinin beşiyi Şuşanı işğal etdikdən sonra Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın büstlərini güllələdilər.

Qeyd edək ki, bir zamanlar Şuşanın bəzəyi olmuş bu heykəllərdən birinin - Xurşidbanu Natəvan büstünün müəllifi Əməkdar incəsənət xadimi Həyat Abdullayeva, Üzeyir Hacibəyovun və Bülbülün büstlərinin müəllifləri isə Xalq rəssamı Xanlar Əhmədov və Əməkdar rəssam Namiq Dadaşovdur. Erməni güllələbaranı nəticəsində büstlərə zərər dəydi. Belə ki, Natəvanın baş barmağı yoxdur, Üzeyir bəyin eynəyi sındırılıb, Bülbülün isə tunc alnı qabarıb.

Heykəllərə qarşı belə vandallıq edən erməni işğalçıları büstlərin tunc materialına da göz dikdilər. Heykəllərdən gəlir əldə etmək məqsədilə əvvəlcə İrəvana, sonra da Gürüstana apardılar. Gürcüstanda yaşayan həmvətənlərimiz təsadüfən bu heykəlləri gördülər. Bununla bağlı müvafiq qurumlara məlumat verdilər. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin müdaxiləsindən sonra heykəllər Bakıya gətirildi.

Bir vaxtlar doğma şəhərlərində - Şuşada ucaldılan Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın büstləri Bakıda, Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində qərar tutdu. 2000-ci ildən muzeyin kolleksiyasına daxil edilən, erməni vandalizminin vəhşi xislətinin daha bir sübutu olan "Güllələnmiş heykəllər" yenidən öz doğma məkanlarında ucaldılacağı günü gözlədilər.

2020-ci il 8 noyabrda müzəffər Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək Qarabağın incisi Şuşa şəhərini işğaldan azad etdilər. Yurd-yuvasından didərgin düşmüş, məcburi köçkünə çevrilmiş "Güllələnmiş heykəllər"in də həsrətinə son qoyuldu.

Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Artıq dövlət başçısının bu sözləri reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu. Bununla bağlı keçirilən tədbirdə çıxış edən Prezident İlham Əliyev dedi: "Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Şuşa Mədəniyyət Mərkəzi, Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini gülləbaran edib".

Dövlət başçısı xatırlatdı ki, 1982-ci ilin yay aylarında Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açıb: "Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi".

Prezident İlham Əliyev bu büstləri Bakının hər hansı bir yerində qoyulması üçün müxtəlif vaxtlarda bəzi insanların ona müraciət etdiklərini açıqladı. Ancaq dövlət başçısı o zamanlar bu müraciətlərə etiraz edərək əminliklə bildirib ki, onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq.

"Güllələnmiş heykəllər" kimi tanınan, erməni vandalizminin şahidləri olan Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri öz evlərinə, yurdlarına qovuşdu. İndi onların ruhu şaddır. Dövlət başçısı diqqətə çatdırıb ki, dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Prezident İlham Əliyev deyib: *"Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!"*

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Şəmsi Bədəlbəyli-110

# Şərq mədəniyyətinə günəş Şuşadan doğub

## Şəmsi Bədəlbəyli də məhz Azərbaycan teatrına elə buradan parlaq şəfəq saçdı

**Azərbaycan xalqının sənətkarlar beşiyi sayılan, sonralar isə "Qafqazın konservatoriyası" adlandırılan Şuşada dünyaya göz açanların ilahi vergili olması heç də təsadüfi deyil. Bu dilbər məkanda doğulmaq xoşbəxtliyi kimlərə nəsib olubsa, özlərini bəxtəvər hesab etməlidirlər. Çünki Qarabağın zümrüd tacı Şuşa həm də istedadlar məskəni olub.**



Sənətşünaslıq üzrə fəlsəfə doktoru Cəmilə Həsənova deyir ki, XX əsrdə Azərbaycan bəstəkarlıq məktəbinin təməlini qoyan, ölkəmizdə musiqili teatrın yaradıcısı, müasir musiqi mədəniyyətinin qurucusu olan Üzeyir bəy Hacıbəylinin sinfində Şəmsi Bədəlbəylinin təhsil alması sonralar onun milli musiqili teatrdakı fəaliyyətində mühüm rol oynamışdır: "...Lakin elə həmin illərdə Şəmsi Bədəlbəylini özünə cəlb edən daha bir sənət sahəsi vardı ki, bu da teatr rejissorluğu idi. Onun teatr sənətinə gəlişində, bu sahədə qüvvəsini sınamasında və püxtələşməsində böyük dramaturq Cəfər Cabbarlının əvəzsiz rolu olmuşdur. Azərbaycan teatrının inkişafında görkəmli xidmətləri olan C.Cabbarlının gənclərə diqqətli və qayğıkeş münasibəti, onun sadəliyi, aydın fikirləri, fəlsəfi mülahizələri, səmimi söhbətləri gənc Şəmsi Bədəlbəyliyə böyük təsir göstərir və onların tanışlığı möhkəm dostluğa çevrilir...".

Xalq artisti, görkəmli rejissor və ictimai xadim Şəmsi Bədəlbəyli 1911-ci il fevralın 23-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində Bədəl bəy Bədəlbəylinin və Rəhimə xanım Qacarın ailəsində dünyaya göz açmış, teatr sənətinə də məhz elə buradan parlaq şəfəq saçmışdır.

Atası Bədəl bəy dövrünün qabaqcıl maarif və mədəniyyət xadimi idi. Əslən Qarabağdan olan Bədəl bəy Qori Seminariyasında təhsil almışdı. XX əsrin əvvəllərində Şuşadan Bakıya köçmüş, mədəniyyət və maarifçilik sahəsində geniş fəaliyyət göstərmiş, xalqın maariflənməsi, milli mədəniyyətin yüksəldilməsi yolunda səmərəli ictimai iş aparmışdır. O, Bakının dağlıq məhəlləsində yerləşən 6 saylı rus-Azərbaycan məktəbinin müdiri idi, ömrünün sonuna kimi burada pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Həmin məktəb elə o dövrdən "Bədəl bəyin məktəbi" kimi tanınmışdır.

Həmsöhbətim deyir ki, 1927-1932-ci illərdə Şəmsi Bədəlbəyli Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. Burada o, iki il xalq çalğı alətləri şöbəsinin tar, daha sonra kompozisiya nəzəriyyəsi sinfində oxuyub, Üzeyir bəyin tələbəsi olub. Məhz həmin dövrdə Üzeyir bəylə yaxından yaradıcılıq ünsiyyəti onun bir sənətkar kimi yetişməsində böyük rol oynayıb: "Həmin illərdə o, Azərbaycan Dövlət Dram Teatrında böyük qardaşı, bəstəkar və dirijor Əfrasiyab Bədəlbəylinin rəhbərlik etdiyi orkestrdə tar çalıb, bəzən də C.Cabbarlının "Od gəlini" və "Sevil" tamaşalarında səhnə arxasından aktyorları tarda müşayiət edib. Eyni zamanda Şəmsi Bədəlbəyli Cəfər Cabbarlıya səhnə ilə bağlı fəaliyyətində köməklik göstərib. Bu da onun rejissorluq sənətinə marağını artırıb, tamaşalarda rejissor assistenti kimi çalışmağa başlayıb. Azərbaycan mədəniyyətinin iki böyük şəxsiyyətinin - Üzeyir bəy Hacıbəylinin və Cəfər Cabbarlının xeyir-duası ilə sənətə qədəm qoyan Şəmsi Bədəlbəyli taleyini ömürlük teatrla bağlayıb. Onun yaradıcılıq simasında musiqiçi keyfiyyətləri rejissorluqla birləşmiş, orijinal yozumlu tamaşaların yaranmasında məhz musiqiçi ilə rejissor yaradıcılıq təması önəmli olub..."

Şəmsi Bədəlbəyli yalnız teatrda, səhnədə, kinoda özünün istedadını təsdiqləməyib. O, eyni zamanda jurnalistika sahəsində də qabiliyyətli olduğunu sübut edib. 1930-1932-ci illərdə "Gənc işçi" qəzeti redaksiyasında "İncəsənət və ədəbiyyat" şöbəsinin müdiri vəzifəsində çalışan Ş.Bədəlbəyli bir sıra tamaşalar haqqında məqalələrlə çıxış edib.

Şəmsi Bədəlbəylinin yeniyetmə və gəncliyi ötən əsrin iyirmi-otuzuncu illərində Azərbaycanda mədəni həyatda baş verən köklü dəyişiklilər və quruculuq dövrünə düşüb. Sənət qabiliyyətini nəzərə alan Xalq Maarif Komissarlığı 1933-cü ildə onu Moskvaya təhsil və təcrübə almağa göndərib. Təhsilin başa vurub Bakıya qayıdan Şəmsii Akademik Milli Dram Teatrının rejissor heyətinə işə götürülüb. O, 1941-ci ilə qədər bu kollektivdə çalışıb. 1930-1932-ci illərdə teatrşünas kimi fəaliyyət göstərib, "Vətən yolunda" qəzetinin əməkdaşı kimi də İranın Təbriz şəhərinə ezam edilib. Qəzetdə mədəniyyət mövzusunda məqalələr yazan Şəmsi Bədəlbəyli Təbrizdə teatr həvəskarları ilə Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", Zülfüqar Hacıbəylinin "Əlli yaşında cavan" operettalarını tamaşaya hazırlayıb.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının formalaşmasında, aktyor truppasının təkmilləşməsində onun xidmətləri olduqca böyükdür. 1939-cu ildə Azərbaycan Dövlət Dram Teatrında Ş.Bədəlbəylinin rejissor kimi ilk müstəqil işi olaraq C.Məmmədquluzadənin "Ölülər" əsəri tamaşaya qoyulub. Bu da onun yaradıcılığında yeni mərhələnin başlanğıcı olub. Bundan sonra həmin teatrda Ş.Bədəlbəylinin rejissorluğu ilə S.Rəhmanın "Xoşbəxtlər", "Aşnalar" komediyaları da tamaşaçı sevgisi qazanıb.

1964-cü ildə A.Məlikovun "Ləpələr" operettasını tamaşaya qoyub. Operetta 1968-ci ildə teatr tamaşalarına Beynəlxalq baxışda I dərəcəli diplomla təltif edilib.

1974-cü ildə yenidən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri təyin olunan Şəmsi Bədəlbəyli burada 1976-cı ilə kimi çalışıb. Həmin ildə isə o, Azərbaycan Teatr Cəmiyyəti İdarə Heyətinin sədri seçilib.

Görkəmli rejissor Şəmsi Bədəlbəyli musiqili teatr sənətinin inkişafında, onun tərəqqi yolunda göstərdiyi böyük xidmətlərə görə Azərbaycanın Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülüb.

Bu da 1987-ci ilin 23 may tarixi: Şəmsi Bədəlbəylinin əbədiyyətə gedən yolunun son dayanacağı - Bakı, Fəxri xiyaban... Daim sənətsevərlər tərəfindən yad edilən, məzarı tər çiçəklərə bələnən şuşalı balası Səmsi Bədəlbəyli sənət korifeylərindən ibarət nəslin davamçılarından biri kimi də tanınmış və könüllərə köçmüşdü.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Möhtəşəm abidə

# Şuşa qalasının Gəncə qapısı




**Şuşa qalasının üç əsas qapısından biri Gəncə qapısı və ya Çiləbörd qapısıdır. Bu qapı qalanın şimal tərəfində yerləşir. Qalanın digər qapıları isə İrəvan və Ağoğlan qapılarıdır. Hər üç qapının adı tarixi mənbələrdə, eləcə də Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd olunub. Hələ XIX əsrin 60-cı illərində bu qapılar Şuşanın ictimai həyatında mühüm rol oynayırdı.**

Məlumata görə, Ağoğlan və İrəvan qapıları ali şəxslərin keçişi və yük daşınması üçün, Gəncə qapısı isə arabaların keçməsi üçün nəzərdə tutulmuşdu. Bəzi mənbələrdə qala divarlarının dördüncü divarının da olmasından bəhs edilsə də, onun yeri və adı müəyyənləşdirilməyib.

Hələ qədim dövrlərdən memarlar şəhərlə tanışlığın onun qala divarlarından başladığını, şəhərin memarlığını qala divarlarının müəyyən etdiyini nəzərə alırdılar. Buna görə memarlıq-kompozisiya həlli baxımında Şuşa qalasının əsas - şimal qapısı zəfər tağını xatırladır.

Pənahəli xanın hakimiyyəti dövründə inşa edilmiş qapı XVIII əsrdən etibarən Gəncə və ya Çiləbörd qapısı adlandırılıb. Şuşa qalasının bu qapıdan çıxan yolu bu şəhəri Gəncə şəhəri və Qarabağ xanlığının Çiləbörd mahalı ilə birləşdirirdi.

Qarabağ xanlığının Rusiya imperiyasına birləşdirilməsindən sonra Gəncənin Yelizavetpol adlandırılması (1804) ilə əlaqədar Gəncə qapısı da Yelizavetpol qapısı adlandırılmağa başlayıb.

Şuşa qalasının şimal qapısı qala divarlarının ortasında - Ağoğlan və İrəvan qapılarının arasında yerləşir. Şuşa qalasının digər qapıları ilə müqayisədə Gəncə qapısı dövrümüzədək daha yaxşı vəziyyətdə qalıb.

Şahmatvari və küknar düzülüşlü ağ və qara daşlardan toxunmuş hörgü, qalanın dərin oxvarı tağlı girişini effektiv şəkildə əhatə edir. Giriş üzərində dağılmış yalançı pəncərə çıxışlarının simmetrik izləri var. Onların arasında mazğallar və ya qala bacaları yerləşir. Yalançı və həqiqi pəncərə çıxışlarının sıralanması o dövr memarlığında ictimai binaların fasadlarının həll edilməsi üçün geniş istifadə edilən üsul olmaqla, memarlar tərəfindən mülki memarlıqdan qaynaqlanıb.

Şəhərin qala divarları üzərində ucalan Gəncə qapısının düz səthi, müəyyən şəhərsalma xüsusiyyəti daşımaqla, ona parad görünüşü verir. Düşmənlərin əsas qala qapısına rahat yaxınlaşmasına mane olmaq üçün qapı qarşısında bir tərəfi divarın fasadına dirənən müdafiə divarı inşa edilib. Qala tərəfdən qapıya gözətçilər üçün tikilmiş xüsusi yer birləşir.

Gəncə qapısının ikinci yarusunda silahlar saxlanılırdı. Qərb tərəfdən qapıya üç yaruslu dairəvi qüllə birləşir. Qüllənin müxtəlif yerlərində pərakəndə şəkildə mazğallar yerləşdirilib.

Sovet hakimiyyəti illərində Şuşa qalasının şimal hissəsində, həmçinin Gəncə qapısında bərpa işləri aparılıb.

Şimal qapısı rayonunun memarlıq simasını yaxınlıqda yerləşən, daş çardaq kimi həll edilmiş, daş çadırla örtülmüş bulaq tamamlayır.

***Z. FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Fakt və rəqəmlər

- *Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.*
- *Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində Son Tunc və İlk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.*

● Maarif ocağı

# Tarixi yadigarlardan biri: Realnı Məktəb

**Təhsil tariximizdə özünəməxsus yeri olan, xalqımıza neçə-neçə ziyalı, tanınmış yazıçılar, ədiblər bəxş edən Şuşa Realnı Məktəbi də mənfur daşnakların vəhşiliyinin qurbanı olan bilik, elm məbədgahlarımızdandır.**



1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli Realnı Məktəbin əsası qoyulur. Hazırlıq və üç əsas sinifdən ibarət təşkil olunan bu məktəbə ilk dəfə 159 şagird qəbul edilir. 1886-cı ildə təhsil ocağına 7.500 manat vəsait xərclənmişdir.

Dövrünün nümunəvi maarif ocağı hesab edilən Şuşa Realnı Məktəbi xalqımızın təhsil sahəsində əldə etdiyi uğurların bünövrəsini qoyduğu üçün ona maraq gündən-günə artıb. Burada tanınmış maarifçilər Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Məlikhaqnəzərov dərs deyiblər. Məktəbin şagirdləri də onlara dərs deyən müəllimləri kimi sonradan məşhur şəxslər kimi tanınıblar. Təhsil ocağının yetirmələri olan Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdilər, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski fəaliyyətləri ilə dövrlərinin ən parlaq şəxsiyyətləri kimi yadda qalıblar.

Şuşanın qədim tikililərindən sayılan təhsil ocağının binasında 1960-cı ilədək Şuşa Pedaqoji Texnikumu, 1960-cı ildən 1989-cu ilədək Riyaziyyat Təmayüllü 2 nömrəli İnternat Məktəbi fəaliyyət göstərmişdir.

Binanın sonuncu sakinləri isə APİ-nin (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin) Şuşa filialı olub. 1989-cu ildən 1992-ci ilədək bu binada fəaliyyət göstərən ali təhsil müəssisəsinin Şuşa filialında tələbələr, əsasən, pedaqoji fakültələrdə təhsil alırdılar.

Təhsilimizin inkişafına əvəzsiz töhfələr vermiş əzəmətini, tarixi görkəmini, qədimliyini qoruyan Şuşa Realnı Məktəbi çox təəssüf ki, 1992-ci ilə qədər ayaqda durmağı bacardı. 1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları orada bir çox tarixi, dini yerlərimizi məhv etdi, o cümlədən Şuşa Realnı Məktəbini yandıraraq xarabazara çevirdilər.

...30 ilə yaxın işğal olunmuş torpaqlarımızın həsrətinə son qoyuldu. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə erməni işğalçılarının böyük xülyalarını puç etdi. Şuşaya səfəri zamanı dövlət başçısı İlham Əliyevin erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış olarkən dediyi bu fikirlər də tezliklə müasir təhsil tariximizdə yenidən Şuşa səhifəsinin açılacağını deməyə əsas verir: "Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

...Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

***"Azərbaycan"***




# Bayram tonqalları artıq Qarabağda da şölə saçır

## Bu yaz hər tərəfdən Vətən ətri gəlir

*Qış getdi, yenə bahar gəldi...*
*Gül bitdi və laləzar gəldi...*
*...Döndü vətəninə cümlə quşlar,*
*gəldi yuvasına qırlaquşlar...*

Həzin-həzin əsən bahar mehi qəlbimizə sərinlik, ruhumuza dinclik çiləyir...

Bu yaz yurdumuza bir başqa gözəllik, bir başqa bar-bərəkətlə qədəm qoyur...

Torpaq fərəhlə oyanır, ağaclar tumurcuq gözlərini daha sevinclə açır, kol dibindən boylanan tər bənövşələr daha gözəl rayihə saçır. Göylərdən nur süzülür, bu yaz coşqusuna hay verən ulu dağların köksündən qopan coşğun sellər hayqırtıyla ana yurdun bağrına qovuşmağa tələsir...

Günəşin qaş-qabağı açılır, təbiət büründüyü boz libasını çıxarır, yaradılış, doğuluş, qurtuluş rəngi olan zümrüdə bürünür, şadlıq rəmzi olan qırmızı kəmərini bağlayır belinə... Səməni kimi nazlanır...

Hələ bir də uca zirvələrdə al qırmızı dilimləri ilə zülmətə bürünmüş səmaya Günəş kimi işıq salan, Oğuz yurdunun gur yanan ocaqlarına, Qələbə tonqallarına baxın...

O tonqallar ki, çırtaçırtla alovlandıqca, ətrafa gur qığılcımları saçdıqca dostları sevindirir, düşməni isə yandırıb-yaxır, qəlbinə əbədiyyətədək qorxu, vahimə salır...

Bu yaz hər tərəfdən burum-burum Vətən ətri gəlir, üçrəngli məğrur bayrağımız Kiçik Qafqazın şah zirvələrində dalğalanır, bu təntənədən vəcdə gələn ruzigarlar Qarabağın bayram salamlarını yetirir Odlar yurduna, bütöv Azərbaycana...



### Novruz bayramında doğma yurd həsrəti birə min artıb...

Neçə illər idi ki, vətən nisgilini, yurd özləmini bağrımıza basıb yaşamağa çalışırdıq. Zorla qovulduğumuz doğma od-ocağımıza, ana torpağımıza həsrət qalmışdıq. Könlümüzə Vətən düşəndə, burnumuzun ucu Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl və digər işğal olunmuş cənnət məkanlarımız üçün göynəyəndə ağrı-acıdan sinəmizdən qopan ahlar ərşə dirənirdi...

Yalnız röyalar idi ümid, pənah ünvanımız, əlimiz çatmayan, ünümüz yetməyən Qarabağa yuxuda qovuşa bilirdik. Yalnız o zaman xoşbəxt olurduq. Amma bu yuxulardan oyanmaq, real gerçəkliyə qayıtmaq, hər şeyin bir andaca izsiz-tozsuz yoxa çıxmasının yaratdığı kədər, qüssə, qəzəb qarışıq hissləri keçirmək isə bir başqa işgəncə olurdu...

Novruz bayramında isə doğma yurda olan özləm birə min artırdı...

Yenilənməni, təravəti özündə ehtiva edən bu bayram Vətən ətrini gətirirdi burnumuza, köksümüzdən sızıltı keçirdi...

Ürəyimiz atlanırdı, dəlicəsinə doğma yerlərə, doğulduğumuz od-ocağa qovuşmağa can atırdıq.

### Sanki təbiətin bu bayramı Qarabağa məxsus var olmuşdu

Novruz Qarabağda bir başqa təntənə ilə qeyd edilirdi. Sanki təbiətin bu bayramı Qarabağa məxsus var olmuşdu, onun əsl təntənəsini, gözəlliyini yalnız bu yurdlarda daha çox duymaq olurdu. Tam mübaliğəsiz demək olar ki, bahar fəsli başdan-başa Novruz bayramı ab-havasında keçərdi. Böyüyündən-kiçiyinə hər kəsin sevinclə iştirak etdiyi bir bayrama çevrilərdi...

Kəlbəcərdə isə Novruza hazırlıq hələ fevral ayından, Xıdır Nəbi ilə başlayırdı. Bu, çərşənbələrin, bayramın gəlişinə hazırlıq hesab edilirdi. Hər həftənin dördüncü günü Kosa gəzdirilirdi. Kəndin cavan oğlanları bir evə yığışır, Kosaya dəridən hazırlanan xüsusi papaq, tərs çevrilmiş dəri gödəkcə geyindirir, əlinə taxtadan qılınc verirdilər. Axşam şər qarışanda Kosa digər cavanların müşayiəti ilə ev-ev gəzib, məşhur "A Kosa, Kosa, gəlsənə..." mahnısını oxuyur, payını yığırdı. Ona un, yağ, şəkər tozu, bəzən də pul verirdilər. Bütün evləri gəzib qurtardıqdan sonra əldə olunan ərzaqdan halva çalınır, kəndin bütün evlərinə paylanırdı. Pul isə Kosa gəzdirənlər arasında bölünürdü.

İlaxır çərşənbə isə xüsusi coşqu ilə qeyd olunurdu. Gur tonqallar çatılır, cavanların göy üzünə fırlatdığı lopalar ətrafa işıq saçırdı. Tonqalların üzərindən üç dəfə tullanırdılar ki, ötən ilin ağrı-acısı, xəstəliyi oda tökülüb yansın.

İlaxır çərşənbə tonqalı yandırıldıqdan sonra bütün süfrələr bəzənirdi, xüsusilə də şirniyyatlarla, meyvələrlə. Xonçanın ortasında isə quzu fiqurlu şirniyyat olurdu. Boğazına qırmızı bağlayar, ağzına da bir tel səməni qoyardılar.

Uşaqlar qoz, fındıq, şirniyyat, konfet, meyvə dolu boşqablarda qonşulara, qohumlara çərşənbəlik payı daşıyardılar. Adət idi, həmin qablar boş qaytarılmaz, ora gətirilən payda olmayan şirniyyatlardan, meyvələrdən qoyularaq geri göndərilərdi.

Bayram axşamında xoş xəbər eşitmək üçün qapılar pusulardı, qızlar fala baxar, uşaqlar torba atardı...

Arzular tutular, ilin uğurlu keçməsi üçün diləklər edilərdi...

Səhər obaşdan hələ dan üzü ağarmamış qızlar durub gedirdi çay başına, "lal su" gətirməyə. Həmçinin də çayın içindən kiçik çınqıllar götürürdülər. Həmin sudan evin hər küncünə, həyətə səpərdilər, çınqıllardan çörək təknəsinin dibinə, un kisəsinə qoyardılar ki, ev daim ruzulu və bərəkətli olsun...

### İlaxır çərşənbədən Tanrı dərgahına üz tutan müqəddəs dualar

Buna görə də elə ki, havadan bahar ətri duyulurdu doğma yerlər, dədə-baba yurdlarımız, doğulduğumuz ocaqlar qarşıqoyulmaz bir qüvvə ilə özünə çəkirdi bizi, məcburi köçkünləri, Vətəndə qəribçilik çəkən yüzminləri...

İllər idi ki, Novruz bayramını bu cür xiffətlə qeyd edir, bayram tonqallarından ürəklə tullanmır, Tanrıdan yalnız bir diləyimiz olardı: gələn il bu əziz bayramı öz doğma ocağımızda, Qarabağımızda qeyd edək. Yadımdadır, qonşumuzda 80 yaşlı cəbrayıllı bir nənə var idi. Axırıncı çərşənbə günüydü, cavanlar nənənin qolundan tutaraq məcburi köçkün qonşuların bir yerdə ətrafına yığışdığı ilaxır çərşənbə tonqalına onu da gətirmişdilər. Həmin vaxt ağbirçəyin donuq nəzərlərlə ocağın dilimlərinə uzun-uzadı baxaraq, "sənə yalvarıram, İlahi, öz yurduma qayıtmayana qədər ruhumu mənə bağışla, canımı el-obamda al ki, mən də doğulduğum torpağa qarışım..."

İlaxır çərşənbə tonqallarının, arzu, dilək, ümid tonqallarının ətrafından Tanrı dərgahına üz tutan bu cür dualar saysız olurdu...

Bəlkə də elə bu saf, ülvi, Vətən özləmli müqəddəs duaların çin olmasının nəticəsidir ki, biz indi Novruzu illərdir həsrətini çəkdiyimiz Qarabağın azadlığının yaratdığı qürurverici şadyanalıqla qeyd edirik.

Düz 30 illik həsrətdən, qubardan, nisgildən sonra Qarabağımızın üzü güldü, başındakı duman avazıdı, çən-çiskini dağıldı, bayram-bayrama qarışdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz, qəhrəman əsgərlərimiz, canlarını, qanlarını bu torpağa qurban edən şəhidlərimiz elimizə, obamıza qələbə, bayram ərməğan etdi, yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən yarasına məlhəm çəkdi, yurda qayıdış ümidləri bir andaca gerçək oldu.

Bu il Ali Baş Komandan İlham Əliyev düşmən caynağından azad edilən Vətən torpaqlarına müzəffər sərkərdə kimi qədəm qoydu...

İlham Əliyev Şuşaya səfər edərək Cıdır düzündən, Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidən bir daha bəyan etdi ki, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi: "Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi".

Ali Baş Komandan Cıdır düzündə Novruz bayramının əsas simvollarından biri olan paxlava ilə armudu stəkanda çay içərək həm Azərbaycanın dostlarına, həm də düşmənlərinə mesaj da verdi: "Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!"

Bəli, bu bayramda arzu, ümidlərimizdən qanadlanaraq Qarabağda şölə saçan Qələbə tonqallarımızın tüstüsü düşmənin gözünü bir daha kor etdi. Kor etdi ki, bir də heç zaman dönüb yurdumuza tərəf baxmağa belə cəsarət etməsinlər...

İndi Azərbaycan xalqı yeni başlanğıcı, firavanlığı, işıqlı gələcək vəd edən bu əziz el bayramını yurdumuzun dörd bir tərəfində coşqu ilə qeyd edir. Dədə-baba torpaqlarından zorla didərgin salınan məcburi köçkünlər Vətənə, Qarabağa dönəcəkləri, əziz bayramlarını qəribçilikdə keçirməyəcəkləri üçün özlərini dünyanın ən bəxtəvər, ən xoşbəxt insanları sayırlar...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# General Hacı Zeynalabidin Tağıyev həzrətlərinin Novruz bayramı münasibətilə söylədiyi nitq

***REDAKSİYADAN:*** *Xalqımızın ictimai-siyasi, eləcə də mədəni həyatına adı qızıl hərflərlə yazılmış neft milyonçusu, mesenat, milli kadrların yetişməsində misilsiz xidmətləri olmuş xeyriyyəçi Hacı Zeynalabidin Tağıyevın qoyub getdiyi və sərvət kimi qorunub saxlanan yadigarlarından biri də çarizm dövründə çox çətinliklə ərsəyə gətirib açdırdığı "Qızlar məktəbi"dir.*

*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918-ci il dekabrın 7-də təntənəli açılışı olan "Qızlar məktəbi"nin binası paytaxt Bakının ən izdihamlı, mərkəzi, geniş, gur işıqlı İstiqlaliyyət küçəsində yerləşirdi.*



*"İşıq" qəzetinin 1911-ci il 19 mart tarixli sayında Hacı Zeynalabidin Tağıyevin Novruz bayramı ilə bağlı həmin binada keçirilən tədbirdəki nitqini dərc edib. Filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayevanın transliterasiya etdiyi məktubda yalnız Novruz bayramı deyil, qəzetçiliklə bağlı incə məqamlar da var.*

Rəbiül-əvvəl ayının 20-sinə təsadüf edən eydi-Novruzun birinci günü Hacı Zeynalabidin Tağıyev həzrətlərinin qız məktəbi imarətində "Bakı cəmiyyəti-xeyriyyəsi" və "Nəşri-məarif cəmiyyəti" sədri, xadimi-millət və piri-mümtəhən Hacı Zeynalabidin Tağıyev və qaziyi-vilayəti-Baku Ağa Mir Məhəmməd Kərim Hacı Mir Cəfərzadə hüzəratının təhti-rəyasətində mükəmməl bir rəsmi-təbrik tərtib olundu. Cəmiyyətin nəfinə isə iki min manatdan ziyadə pul cəm olundu.

Rəsmi-məzkurda Bakı qradonaçalniki, qubernatoru, şəhər idarəsi rəisi və İran konsulu və Bakı şəhərinin əyan-əşrəf və ürəfasından daha bir xeyli adam mövcud idi.

Rəsmi-qəbula təşrif gətirən zəvati-möhtərəmə məktəbin qayət dilrüba bir surətdə zinətlənmiş və döşənmiş olan salonunda (zalında) Hacı və qazı hüzəratı tərəfindən kəmali-şövq və məhəbbətlə qəbul olunurdular.

Qaziyi-vilayət Ağa Mir Məhəmməd Kərim həzrətləri məqamına münasib bir nitq söyləyib, imperator və imperatoriçə hüzəratının ömürlərinə xeyir-dua etdilər.

Bəd hazirun cürbəcür şirniyyat və hələviyyat ilə müzəyyən olunmuş süfrəyə dəvət olundu.

Lakin bu məclisdə insanı ən çox fərəhnak və xoşhal edən orada bir çox darülfünün qurtarmış mühəndis, təbib və yurist müsəlman cavanlarının mövcud olması idi ki, biz müsəlmanların ümdə xoşbəxt olmağının yeganə səbəbidir.

Hacı qonaqlar ilə bərabər vidalaşıb gedərkən, birdən-birə dala qayıdıb məclisdə qalan müsəlmanları böyük zala dəvət etdirib, orada özünün boyu bərabəri mükəmməl və müzəyyən və çarçubə içindəki təsvirini (əksini) göstərdi və dedi ki:

"Övladlarım! Bənim bu əksimə bir diqqət ilə baxın, görün orada nə görərsiniz".

Cəmaət sükut ilə təsvirə tamaşa edərkən həştad sinnində piri-mümtəhən Hacı həzrətləri buyurdular ki: "Övladlarım! Görüyorsunuzmu ki, bənim sağ əlim dini-islamın rüknü və mədari-iftixarı olan Qurani-əzimüşşənin üstündədir və sol əlimdə tutduğum isə qəzetədir. Övladlarım! Bənim sizə axırıncı nəsihətim budur ki, bu Quranı həmişə sağ və qəzetəyi isə sol əlinizdə tutub, millətə sidq və sədaqət ilə xidmət edəsiniz!"

Bu əsnada Hacı gözləri yaş ilə dolmuş ikən haziruna xudahafiz edib, məclisdən təşrif apardılar. Hacı ağanın bu gözəl, pürməni və həkimanə kəlamı bana o qədər təsir eylədi ki, indi o nəsihəti bir an qəlbimdən çıxarda bilmiyoram.

Oxucularım! Böylə bir nəsihət bu vaxta qədər heç bir alimin ağzından eşidilməyibdir. Zənnimizcə, bu gözəl nitqi tariximizə qızıl mürəkkəb ilə yazılıb, bir əsəri-nafe olaraq həmişə mühafizə etməliyik.

Çünki bir para şəxslər Quranı tutanda zəmanənin indiki ağlar halını bilmərrə unudurlar. Qəzetə tərəfdarları olanların bəzisi isə nəinki bir Quranı, hətta bütün islamiyyəti belə yaddan çıxarırlar...

***Mustafa bəy ƏLİBƏYOV,***
***("İşıq" qəzeti, № 9, 19 mart 1911/ 1 rəbiül-axər 1329)***

# Ağstafa arıçıları yeni mövsümə hazırlaşırlar



İqlim şəraitinin əlverişliyi, faunasının zənginliyi arıçılığın inkişafı üçün geniş imkanlar açan rayonlardan biri də Ağstafadır. Hazırda rayonun 354 sakini 6396 arı ailəsinə baxır. Keçən il hər arı ailəsindən 10 kiloqram bal götürən təsərrüfat sahibləri bu il bu rəqəmi 15 kiloqrama çatdıracaqlarını söyləyirlər.

Qeyd edək ki, Ağstafada müxtəlif çiçəklərdən toplanan balın dadı və rəngi fərqli olur. Bunu uzun illərdən bəri arıçılıqla məşğul olan və bu işdə zəngin təcrübə toplayan Sadıqlı kəndinin sakini Nizami İsgəndərov da təsdiq etdi. Keçənilki qazancından razılıq edən arıçı baxdığı arı ailələrinin sayını 105-ə çatdırmışdır.

Hazırda arıçılar arı ailələrini yay mövsümünə hazırlayırlar. Əsas işlərindən başqa, arıçılıqla da məşğul olan Qarahəsənli kənd sakini Elşad Mirzəyev deyir ki, bir qədər sonra dərmanlama işlərinə başlayacaq. Bunun üçün artıq dərmanlar da almışdır. Hazırda Elşad 45 arı ailəsinə qulluq edir. Yazda onu 55-ə çatdırmağı qarşısına məqsəd qoyub. Keçən il hər arı ailəsindən 15 kiloqrama kimi bal götürən təsərrüfat sahibinin builki hədəfi 20 kiloqramdır. İndi ən əsas məsələ arı ailələrini soyuqdan qorumaqdır.

Düz Qışlaq kəndində 20 ilə yaxındır ki, arıçılıqla məşğul olan Adil Mehdiyevin də yeni mövsümlə bağlı xüsusi planları var. O, ana arı yetişdirmək üçün fikirləşdiyi yeni üsulu sınaqdan çıxaracaq. Məqsədi yerli iqlimə uyğunlaşan məhsuldar arılar yetişdirməkdir.

Ümumiyyətlə, Ağstafada elə bir kənd yoxdur ki, orada arı saxlanılmasın. Sadıqlı, Muğannı, Köçəsgər, Dağ Kəsəmən və s. kəndlərdə daha çox arı ailəsi var. Muradxanlı kəndində də arıçıların sayı çoxdur. Kənd sakini Murad Vəliyev bu gəlirli sahə ilə uzun illərdir məşğul olur. İstehsal etdiyi balın satışında da problemlə üzləşmir. Keçən il 100 kiloqram balı Bakıda təşkil olunan yarmarkada satıb. Yarmarkanın təşkilatçılarına minnətdarlıq edən Murad kişi bildirir ki, belə yarmarkaların tez-tez təşkil edilməsi arıçıların işini yüngülləşdirər və istehsal olunan balın satışında problem yaşanmaz.

Keçən il, ümumilikdə, rayon üzrə 70 ton bal istehsal olunmuşdur. Lakin bu rəqəm ağstafalı arıçılar üçün son hədd deyl. Onlar cari il 80 ton bal istehsal etmək arzusu ilə hazırlıq işlərinə başlamışlar. Bilirlər ki, bu zəhmətkeş canlılardan daha çox bal götürmək üçün onlara yüksək qayğı ilə qulluq göstərilməlidir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Naftalanda sürətlə böyüyən ağaclar əkilir





Gündən-günə abadlaşan Naftalana istər yerli, istərsə də xarici qonaqlar tez-tez gəlirlər. Onlar burada, əsasən, öz sağlamlıqlarını bərpa edirlər. Boş vaxtlarında isə şəhərin görməli yerləri ilə tanış olurlar.

Son illər bu unikal müalicə-kurort şəhərinin siması tanınmaz dərəcədə dəyişir. Şəhərdə hər il yeni park və xiyabanlar salınır. Xüsusilə yaz aylarında şəhərdə keçirilən yaşıllaşdırma aksiyaları buranı yaşıl zonaya çevirir.

Bu günlər şəhərdə daha bir aksiyaya start verilmişdir. Belə ki, şəhər ərazisində "pavlovniya" və "adəm" ağaclarının əkilməsinə başlanılmışdır. Qeyd edək ki, bu ağaclar dünyada sürətlə, yəni ildə 3 metrə qədər böyüyür və havanın çirklənməsinin qarşısını alır. Hündürlüyü 18-20 metrə qədər uzanan bu qiymətli ağac cinsləri 100 ilə qədər yaşaya bilir. Mebel, musiqi alətləri, bəzək əşyaları və ən əsası keyfiyyətli kağız istehsalı kimi bir çox sahələrdə istifadə olunan bu ağacların çiçəklərində bol bal ekstraktı olduğundan arıçılar onu bal gətirən ağac kimi də əkirlər. Gülləri nektarla zəngindir, alınan bal şəffaf və ətirli olur.



İlkin mərhələdə şəhərdə 300 ağacın əkilməsi nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




● Xalq bayramı

> **“Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır”.**
>
> **Heydər ƏLİYEV**

**Novruz xalqımızın mifik düşüncə və təsəvvürlərini özündə yaşadan və bu günümüzə yetirən qədim xalq bayramıdır. Bu bayram çox əski çağlarda Şərq dünyasında həm yazın gəlişi, yeni mövsümün başlanması, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı, həm də xalqın mənəvi-əxlaqi dəyərlərini, humanizm və həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən ayin və etiqadlar sistemidir.**


*Foto İlham BABAYEVİNDİR*

# Milli-mənəvi mədəniyyət rəmzi - ulu Novruz

Bu gün Novruzun xalq arasında keçirilmə tarixini dəqiq söyləmək qeyri-mümkündür. Lakin bu bayram xalqın ən ülvi duyğularının, sülh, dostluq, birlik, səmimiyyət, mərhəmət hisslərinin yüksək ifadəçisinə çevrilmişdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin imzaladığı tarixi sərəncamdan sonra Novruz bayramı dövlət səviyyəsində qeyd edilməyə başladı. Bu isə Novruzla bağlı həqiqətin bərpa olunmasına və bayramın dünya xalqları arasında tanınmasına zəmin yaratdı.

2009-cu ildə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı və aşıq sənəti UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilmişdir. Təqdirəlayiq haldır ki, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi martın 21-ni “Beynəlxalq Novruz günü” elan etmişdir.

## Dəyərlərin əzəməti

Azərbaycanda səmavi dinlər yaranana qədər müxtəlif inanclara, suya, oda, ağaca, səma cisimlərinə və s. inam güclü olmuşdur. Uzun əsrlərin keçməsinə baxmayaraq, həmin inamın izləri yaddaşlarda qorunub saxlanmış və indi də davam etməkdədir. Dünya yaranandan suya, oda təmizləyici, qoruyucu funksiya daşıyan müqəddəs varlıqlar kimi baxılmış, onlarla bağlı inanclar meydana gəlmişdir. Ümumilikdə, dünyanın, insanın yaranmasında bilavasitə iştirak etmiş dörd ünsür - Su, Od, Yel, Torpaq islama qədər milli təfəkkürdə kök salmışdır. Atəşpərəstlik məhz bu mifik təsəvvürlərin qovşağında meydana gəlmiş, Azərbaycan əhalisinin əksəriyyəti oda sitayiş etmiş, onun müqəddəs saymışlar. Odla bağlı ayin və mərasimlər Novruz bayramı kontekstində, Od çərşənbəsi düşüncəsində bu günümüzə qədər gəlib çatmışdır.

Yaşadığımız XXI yüzillik qloballaşma, dünyaya inteqrasiya dövrü olduğuna görə, milli-mədəni dəyərlərimizin öyrənilməsi başlıca vəzifələrdəndir. Novruzun dəqiq yaranma tarixi məlum olmasa da, bayramın mənşəyi, mahiyyəti, adət-ənənələri elmi prinsiplər əsasında tədqiqata cəlb edilmiş, mifik təsəvvürlərlə bağlı mətnlərin yazın gəlişi, yeni əmək mövsümünün başlanmasını əks etdirməsi diqqətə çatdırılmışdır. Əl-Biruni, Ö.Xəyyam, İ.A.Braginski, A.Mets, Y.V.Çəmənzəminli, M.İbrahimov, T.Bünyadov, M.A.Dadaşzadə, M.H.Təhmasib, Ə.Cəfərzadə, A.Nəbiyev və başqaları bu sahədə qiymətli elmi araşdırmalar aparıblar.

Novruz xalqımızın minilliklər ərzində ümumsivilizasiya dəyərləri kontekstində yaranıb formalaşan kulturoloji silsilələrindən biridir. Novruz estetik düşüncədə hər cür siyasi görüşlərdən uzaq dünyəvi yaz bayramı kimi formalaşmış və tarixən özünün bu əzəli bayram formatını qoruyub saxlayaraq günümüzə qədər gəlib çata bilmişdir. Erkən mifoloji düşüncə ilə bağlı olan və əcdadlarımızdan xalqımıza miras qalan bu mənəvi dəyərlər silsiləsi təbiət hadisələrinə münasibəti, əmək mövsümünün başlanmasını, etik-estetik, mənəvi-əxlaqi görüşləri bədii şəkildə əks etdirmişdir.

## Astroloji təsəvvürlər

Astroloji təsəvvürlərə görə, mart ayının 20-21-i ilin Yazgüntəni (gecə ilə gündüzün bərabərləşdiyi gün) günü Günəş Yer ətrafında 365 gün, 6 saat dövr etdikdən sonra öz yerinə qayıdır, yəni, “Balıqlar” bürcündən çıxıb “Qoç” bürcünə daxil olması ilə yadda qalır. Ona görə də əcdadlarımız ulu Novruz gününü həm də ilin, təqvimin başlanğıcı kimi qəbul etmişlər.

Mənbələrə görə, Mərrix - Mars deməkdir, mart ayının adı da mars sözü ilə bağlıdır. Tarixin müəyyən məqamlarında Novruz Fərvərdin, Novbahar, İlkbahar, Qışbitti, İlbaşında, İlyaz, Şahnovruz, Həzrət Novruz, Xızır Novruzu, Xuzur günü və digər adlar altında keçirilmişdir. Təzə ilin gəldiyi dəqiq vaxt münəccimlər tərəfindən hesablanar, bununla da “təhvil saxlamaq” adəti icra olunardı. Ümumiyyətlə, ötüb keçmiş dövrlərdə ilin təhvil olunma anına xüsusi diqqət yetirilərdi. Hətta əhaliyə ilin təhvil olunduğunu bəyan etmək məqsədilə evlərin damlarında tonqallar qalanar, təbil çalınardı, Novruz “topu atılar”dı. Bundan əlavə, iltəhvil saatını hər kəs öz evində də müəyyənləşdirə bilərdi, bunun üçün müəyyən məqamlara diqqət yetirmək vacib sayılırdı. Məsələn, adətə görə, xırda balıqların bir anlığa donub qalması, yaxud əksinə, onların sudan quruya can atması, “təhvil suyu” adlandırılan xüsusi qoyulmuş suyun üzərindəki zeytun yarpaqlarının, güzgü üzərində yumurtanın hərəkəti və s. iltəhvil anının göstəriciləri hesab olunurdu. İlin təhvil olunduğu zaman ailə başçısının evinə, ailəsinə xeyir-dua verməyi də xüsusi əhəmiyyət daşıyırdı ki, buna “təhvil-təslim duası” deyilirdi.

Maraqlı adətlərdən biri də budur ki, il təhvil olunduqda evin ən kiçiyi şamları yandırır, evin böyüyü isə səməni otunu bir az qayçılayır, sonra onu özündən kiçik ailə üzvlərinə verərdi. Bu adəti kiçikdən tutmuş böyüyə kimi hamı icra etməli idi. Bu ritualdan sonra ailə başçısı öz hədiyyələrini paylayardı. Hədiyyələr arasında qızıl, gümüş, mis pullar, nabat, noğul, bal xüsusi önəm daşıyırdı. Həmçinin bayram günü hamı qırmızı və ya yaşıl rəngdə təzə paltar geyinməli idi.

## Novruzun adət və ritual sistemi

Novruz bayramının möhtəşəm adət və ritual sistemi vardır. Mənbələrə görə (M.Dadaşzadə Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti.”Elm”,Bakı, 1985), həmin adətlər içərisində qıfıl və ya düyünaçma adəti maraq doğurur. Bu adətin məqsədi odur ki, insanların müşkül işləri həll olunsun, çətinliklərdən, əzab-əziyyətdən çıxsınlar. İnanca görə, bayram günü evdə bağlı, düyünlü, qıfıllı heç nə qalmamalı, hətta paltarların yaxası belə açılmış vəziyyətdə olmalı idi.

Mənbələrdə Novruzun axır çərşənbəsində icra olunan ayinlərdən biri də qaşıqla kasa çalmaqdır. Tədqiqatçılar hesab edir ki, “bu adət əkinçi tayfalarının biri digərindən əkin üçün toxumluq dən nümunələri toplamaq adətini xatırladır”. Həddi-büluğa çatmış cavanlar qaş qaralanda qohum-tanışlarının evinə yaxınlaşır, əllərindəki qabqaşıqla qapıya vurardılar. Bu zaman ev yiyəsi qapını açıb qaba Novruz payı qoyardı. İnanca görə, Novruz payını alan adam özünü göstərməməli və heç kimlə danışmamalı idi.

Şalsallama isə əsasən cavanların iştirak etdiyi qədim bir adətdir. Axır çərşənbə axşamı subaylar örpək, kəlağayı, torba, corab, dolça, dəsmal və ya bel şalını götürüb sevib-seçdikləri qızların yaşadığı evlərə gedir, damdan, bacadan, yaxud pəncərədən “şal sallayardılar”. Şalı boş qaytarmaq qəbahət sayılar, onun içinə evdə olan bayram nemətlərini doldurub qoyar və şala bağlayardılar. Şala qızların toxuduqları corab, dəsmal və s. əşyaları bağlayar, bununla da oğlana öz razılıqlarını bildirərdilər. Mənbələrə görə, bu adətə Urmiyada da rast gəlmək mümkündür, fərqli cəhət isə ondan ibarətdir ki, cavanlar damdan şal əvəzinə dolça, yaxud kəcavə sallayardılar, bununla da niyyətlərinin boş olmamasına inanardılar.

XX yüzilliyin Şərqin görkəmli şairi olan Şəhriyarın “Heydərbabaya salam” poemasında Novruz bayramı, onun adət-ənənələri poetik dillə diqqətə çatdırılır:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruzgülü, qarçiçəyi çıxanda*
*Ağ buludlar köynəklərin sıxanda*
*Bizdən də bir yad eləyən sağ olsun,*
*Dərdləriniz qoy dikəlsin, dağ olsun...*

Aparılan araşdırmalar göstərir ki, Novruz adətləri içərisində qulaq falına çıxma, kuzə ilə fala baxma və folklorumuzda geniş yayılmış vəsfi-hallar da mövcuddur.

Qulaq falı və ya qapıpusma axır çərşənbədə icra olunan adətdir. Bu adət bu gün də el arasında yaşamaqdadır. Çərşənbə və bayram axşamlarında niyyət tutub qonşuların, qohumların evinə yaxınlaşır, qapının arxasından evdə gedən söz-söhbətə, aparılan danışıqlara qulaq verirlər. Adətə görə, eşidilən söz tutulan niyyətin qəbul edilib-edilməyəcəyini müəyyənləşdirir. Ona görə də böyüklər, ağbirçəklər “bayram axşamlarında bir-birinizə xoş sözlər, gözəl arzular bildirin ki, birdən qulaq falına gələn olar”, deyirdilər.

Vəsfi-hallar da əsasən ilaxır çərşənbə axşamında keçirilir. Bu ayinin iştirakçısı da əsasən subay qızlar və qadınlardır.

Novruz bayramının tarixində bəzədilən süfrə və xonçanın ətrafına yığışmaq ən mühüm məqamlardan biridir. Əvvəla qeyd etməliyik ki, ulu babalarımızın etiqadına görə, süfrə başına müxtəlif heyvanları - təkəni, öküzü və s. gətirib əvvəlcə evin-ocağın başına gəzdirib üzərinə quru meyvə, buğda və s. səpib ağzına şəkər verərdilər. Bu ayin əcdadlarımızın ilin hansı heyvan üstündə təhvil olması inancı ilə bağlı idi.

Novruz süfrəsi insan sağlamlığını möhkəmləndirən, ömrünü uzadan müxtəlif nemətlərlə zəngindir. Bu nemətlər arasında “yeddilərin”, yəni “s” hərfi ilə başlanan nemətlərin - su, səməni halvası, südlü aş, süd, süzmə, səməni şorbası və onun üzərinə səpmək üçün sumaq qoyulmalıdır. Vaxtilə hamı bayram süfrəsinin ətrafına “Novruz topu” atılandan sonra toplaşardı. Bayram axşamı hər evdə bayram plovu dəmlənir, bəzi bölgələrdə quru balıqla bişirilən südlü plov, şirin plov, əriştəli aş, qaralı aş və s. təamlar hazırlanır.

Novruz xonçasının tarixi çox qədim dövrlərlə bağlıdır. Xonçaya düzülən ənənəvi Novruz şirniyyatları, qırmızı alma, boyanmış yumurta və s. hər biri erkən mifoloji təsəvvürləri əks etdirir.

Etiqada görə, Novruz süfrəsində hər ailə üzvünün adına şamlar yandırılır və onları yarımçıq söndürmək olmaz.

* * *

Novruz həm də “sülh, dostluq, həmrəylik, humanizm” bayramıdır. Bu bayramda hamı öz sevinci ilə paylaşmalı, hər kəs kədərdən uzaq olmalıdır. İnsanlar bu əziz bayramı səbirsizliklə gözləyir, çünki gəlişilə qəlblərə istilik, xoşbəxtlik və xoş duyğular gətirir.

Azərbaycanda mövcud olan milli-mənəvi və multikultural ənənələr dünyanın əksər dövlətlərinə nümunə olacaq mədəni, etik dəyərlərin göstəricisi olduğu kimi, həm də müxtəlif xalqlar arasında möhkəm birliyin, sülhün və həmrəyliyin əyani sübutudur.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru,***
***filologiya elmləri doktoru***

● Mərasimlər

# Torpaq çərşənbəsi



**Novruz bayramından əvvəl xüsusi qeyd olunan dörd çərşənbənin sonuncusu Torpaq çərşənbəsidir. Su, Od və Yel çərşənbələrindən sonra keçirilən bu çərşənbədə yazın nəfəsi daha aydın duyulur. Torpağa hərarət gəlir, bütün təbiət qış yuxusundan oyanır.**

Yeni əkin mövsümünün yaxınlaşması insanları qayğılandırır. Ancaq bu qayğı insanlarda narahatlıq deyil, xoş əhvali-ruhiyyə, sevinc, ümid hisslərini qüvvətləndirir. İnanırlar ki, bu gələn yazda da yenə zəhmətin gücü, təbiətin səxavəti, torpağın bərəkəti ilə bolluq, firavanlıq içərisində keçirəcəkləri bir ilə başlayacaqlar. Ulularımız bu inam və düşüncələrlə torpağın oyanmasını şən mərasimlər, nəğmələr, ayinlərlə qarşılayıblar. Torpaq çərşənbəsində əkiləcək ərazilərdə kütləvi şənliklər keçirilib. Elliklə, ailəliklə yığışaraq sahələri təmizləyib, müxtəlif ayinlər, mərasimlər düzənləyiblər.

Hər zaman torpaq insanlar üçün müqəddəs sayılıb. Yaradılışın maddi əsası hesab edilib. Torpaq deyəndə həm də vətən, el-oba, yurd yada düşür. Torpağı müqəddəsləşdirən insanlar onu əzizləyib, “Torpaq haqqı”, “Yer haqqı” deyərək and içib, “Torpağın bərəkətli olsun” duası ilə bir-birlərinə alqış ediblər.

Birlik, bərabərlik rəmzi olan çərşənbə bayramlarının həm bənzər, həm də fərqli, özünəməxsus adət-ənənələri və mərasimləri var. Xalq tərəfindən ta qədimdən xüsusi qeyd olunan bu çərşənbələrin hər birində insanlar bir-biri ilə bayramlaşır, evlərdə bayram süfrəsi açılır, tonqal qalanır. İlaxır çərşənbə günü nişanlı qızlara, yeni ailə qurmuş gənclərə də bayram xonçası və pay aparılır. Bayram payı müxtəlif hədiyyələr, meyvələr, şirniyyatlar və geyimlərdən ibarət olur.

Sonuncu - Torpaq çərşənbəsində bayram əhvali-ruhiyyəsi daha da yüksəlir. İnanca görə, bu çərşənbə gecəsində təbiətdə nə varsa, hamısı təzələnir. İlin bolluq, bərəkət gətirməsi diləyi ilə bağlarda, bağçalarda, əkin sahələrində böyük həvəslə işə başlanılır.

Torpaq çərşənbəsi xalq arasında “Axır çərşənbə”, “Yer çərşənbəsi”, “Çərşənbəsuri”, “İlaxır çərşənbə” və başqa adlarla da qeyd edilir. Həmin gün küsülülər barışır, hamı təzə paltar geyinir. Evlər, həyət-baca təmizlənir, xüsusi bayram tədarükü görülür. Yumurta boyanır, qovurğa qovurulur, plov süzülür, şirniyyat bişirilir.

> ## Dördüncü çərşənbə
>
> Torpağa bax, torpağa,
> Sanki qalxır ayağa.
> Buxarlanır nəfəsi,
> Oyanıbdır həvəsi.
> Qızıl öküz tərpənir,
> Torpaq sanki dillənir:
> Çəmənim harda qalır?
> Səmənim harda qaldı?
> Getdi qarlı yorğanım,
> Getdi, çəmənim, dumanım!
> Gəlsin xal-xalçalar,
> Yollar boyu yoncalar,
> Qoy bağ olsun, əkin olsun,
> Mənim ana qucağım!
> Səpin olsun, biçin olsun,
> Gülsün hər bir bucağım!..
>
> ***Əhməd CAVAD***

Axşam düşməyə başlayanda odla bağlı şənliklər icra olunur: tonqal qalanır. Bayram tonqalının ətrafında dövrə vuran insanlar onun üstündən atılaraq “Ağırlığım-uğurluğum odlara tökülsün” deyir. Ocaq başında ən gözəl diləklər tutulur, arzular söylənir. Ağsaqqallar, ağbirçəklər yalnız öz ailələri, övladları, nəvələri üçün deyil, bütün dünya üçün dualar edir, əmin-amanlıq, bolluq, firavanlıq, sevinc, sağlamlıq diləyirlər. İnama görə, ilaxır çərşənbədə qalanan tonqal heç vaxt su ilə söndürülməməlidir.

Sonuncu çərşənbə evlərdə şam da yandırılır. Bu şamların sayı evdə yaşayan ailə üzvlərinin sayına bərabər olur. İnama görə, kimin adına yandırılan şam ən gec sönərsə, o, ailədə ən uzun ömürlü olacaq.

İlaxır çərşənbə günü ən çox sevinən, əylənən uşaqlar olur. Hava qaralandan sonra evlərə qurşaq ataraq “bayram payı” alırlar.

Bu çərşənbə bayramı süfrəsinə xüsusi hazırlıq görülür, onun daha bol, zəngin olmasına çalışırlar. İlaxır çərşənbədə hər bir evdə bayram xonçası hazırlanır. Hələ Su çərşənbəsində islağa qoyulmuş buğdadan boy atmış səməni xonçanın ortasına qoyulur. Ətrafına fındıq, qoz, iydə, innab, kişmiş, badam, şabalıd, boyanmış yumurtalar, qoğal, şəkərbura, paxlava və digər şirniyyatlar düzürlər. Süfrəyə bayram aşı və başqa yeməklər gətirirlər. Adətə görə, bu naz-nemətin arasında adı “s” hərfi ilə başlanan yeddi cür nemət mütləq olmalıdır. Çünki 7 rəqəminin uğur rəmzi olduğuna inanırlar.

Bayram günü hər kəsin öz evində, ailəsinin yanında, bayram süfrəsində birlikdə olması əsas şərtlərdən biri hesab edilir. İnanclara görə, bu çərşənbə öz evində olmayan şəxs yeddi il ilaxır çərşənbəni evində keçirməz.

İnsanlar qaş qaralandan sonra niyyət edib qonşunun qapısına yaxınlaşır, eşitdikləri ilk sözlərə görə niyyətlərini yozurlar. Qulaq falına çıxanları düşünüb hər kəs öz evində xoş sözlər deməyə, gözəl arzular diləməyə can atır. Çünki inanclara görə, ilaxır çərşənbədə ilk hansı sözü eşitsən, ili o cür başa vuracaqsan.

